RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 48 (9503) 2 mart 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Sözümüz imzamız qədər dəyərlidir

### Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib

## Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib

Martın 1-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Baş nazir cənab Rama.
Hörmətli komissar xanım Simson.
Hörmətli qonaqlar.
Xanımlar və cənablar.

İlk növbədə Baş nazir Edi Ramanı salamlamaq və bu vacib tədbirdə bizimlə birlikdə olduğuna görə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan və Albaniya iki dost ölkədir. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik. Bizim olduqca fəal siyasi dialoqumuz var. Bizim cənab Baş nazirlə istər Azərbaycan, istər Albaniya, istərsə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsindəki görüşlərimizin müntəzəm gündəliyi var. Biz bir-birimizi beynəlxalq təsisatlarda dəstəkləyir, habelə enerji təhlükəsizliyi məsələlərində fəal çalışırıq. Albaniya "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsində çox vacib rol oynayıb və TAP heyətinin üzvü qismində vacib rol oynamaqda davam edir. Hazırda isə biz enerji əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə edirik. Əminəm ki, cənab Baş nazirlə bugünkü müzakirəmiz zamanı gündəlikdə duran bütün məsələləri əhatə edəcəyik.

Mən, həmçinin xanım komissar Simsona da növbəti dəfə ölkəmizə səfər etdiyinə görə minnətdarlığımı ifadə etmək istərdim.

→ 2

## Azərbaycan hər zaman Albaniyanın maraqlarını müdafiə edir

### Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub

Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, Edi Rama İlham Əliyevi prezident seçkilərində qələbəsi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbrik etdi.



→ 4

## Azərbaycan ilə İtaliya şirkətlərinin birgə fəaliyyəti məmnunluq doğurur

### Prezident İlham Əliyev İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratini qəbul edib.



→ 4

## Avropanın enerji təchizatında Azərbaycanın rolunun əhəmiyyəti var

### Prezident İlham Əliyev Avropa İttifaqının energetika məsələləri üzrə komissarını qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonu qəbul edib.



→ 4




## *Prezident ƏRDOĞAN:* "Ermənistanla normallaşma prosesini Azərbaycanla sıx koordinasiyada davam etdirəcəyik"

**Türkiyənin Antalya şəhərində təşkil olunan III Diplomatiya Forumunun martın 1-də rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən Türkiyənin xarici işlər naziri Hakan Fidan tədbirin dünyada baş verən böhranların diplomatik yollarla həlli baxımından vacibliyini vurğulayıb.

İştirakçıları salamlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən il keçirilməsi nəzərdə tutulan forumun təxirə salınmasının əsas səbəbinin fevralın 6-da baş vermiş zəlzələnin olduğunu xatırladıb.

→ 6

## Dünya ekoloqlarının COP29-dan gözləntiləri çoxdur

Azərbaycan da zaman-zaman ekoloji problemlərin həll edilməsi üçün müxtəlif tədbirlər həyata keçirir. Amma yenə də problemlər olur. Ölkəmizdə ekoloji problemlərin əsas mənbəyi qlobal ekoloji proseslər və onların lokal təsirləridir. Su mənbələrinin azalması, sənaye müəssisələrinin və nəqliyyatın atmosferi çirkləndirməsi kənd təsərrüfatında yararlı torpaqların sıradan çıxmasına səbəb olur. Üstəlik də biomüxtəliflik, meşələr, flora və fauna yaxşı qorunmur. Sadalanan və sadalanmayan digər problemlər Azərbaycanda "yaşıl iqtisadiyyat", "yaşıl enerji" və "yaşıl zona" kimi vacib addımların atılmasını zəruri edir. Və bəri başdan qeyd edək ki, bu istiqamətdə təsirli tədbirlər də görülür. Onlardan biri elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payını 2026-ci ilədək 24, 2030-cu ilə qədər isə 30 faizə çatdırmaqdır.



→ 11

## Prezident bir daha həqiqəti açıqladı

Dövlət başçısı alman iş adamları ilə görüşündə birmənalı olaraq qalib ölkə kimi Azərbaycana xüsusi münasibət göstərilməsinin vacib olduğunu dilə gətirib. Ermənistan üzərindən hansısa siyasət yürütməyə çalışanlar özləri uğursuzluğa düçar olacaqlar. Çünki artıq bu məsələ həll olunub, Azərbaycanla Ermənistan arasında olan münasibətlərə əlavə müdaxiləyə ehtiyac yoxdur.

Azərbaycan Avropa ölkələri ilə də əməkdaşlığa hazırdır, amma gərək onların da bu məsələdə qərəzli, ikili standartlarla yanaşması olmasın. Qalan məsələlər bu ölkələrin real vəziyyəti qiymətləndirməsindən asılı olacaq.

→ 9

## Avropa parlamentinin növbəti rəzilliyi

### Bu korrupsiyalaşmış qurum özünü tamamilə gözdən salıb

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, ərazisində separatizmin kökünü kəsməsi erməni lobbisinin sözü ilə oturub-duran bəzi Qərb ölkələrinin və təsisatlarının xoşuna gəlməyib və buna görə də xüsusilə son dönəmlər ölkəmizə qarşı təşkilatlanaraq "səlib yürüşü"nə çıxıblar. Antitürk, antiislam, anti-Azərbaycan qüvvələrin yuvasına çevrilən Avropa Parlamentinin rüşvətxor deputatları da iş-güclərini bir kənara qoyaraq qarayaxma kampaniyasına başlayıblar və ard-arda ölkəmizə qarşı əsassız qətnamələr qəbul edirlər.

Həmçinin son zamanlar Fransanın Azərbaycana qarşı təxribatı, Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə ali komissarı Cozep Borelin guya Azərbaycanın Ermənistana hücum edəcəyi barədə yanlış iddiası və sair də göstərir ki, Qərb Azərbaycana qarşı təşkilatlanıb. Qətnamələr qəbul etməklə, qeyri-adekvat bəyanatlar verməklə ölkəmizə təzyiq göstərməyə çalışırlar.

AŞPA-da Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərarın qəbulu da Qərbin ölkəmizə total hücumunun bir başqa nümunəsidir.

→ 10

## Azərbaycanın Fransa müstəmləkəçiliyinə qarşı yaratdığı qlobal platforma

### Bakı Təşəbbüs Qrupu əsarət altında olan xalqların azadlıq mübarizəsinə dəstək verir, fransız kolonializminin ağır fəsadlarını beynəlxalq ictimaiyyətə çatdırır

Azərbaycan isə hər iki işğalçını bütün platformalarda həm ifşa, həm də darmadağın edir. Belə ki, 44 günlük müharibədə Ermənistanı məğlubiyyətə uğradaraq torpaqlarını azad etdikdən sonra Azərbaycan reallıqlarla barışmaq istəməyən, davamlı olaraq ölkəmizə qarşı siyasi-hərbi təxribatlara cəhd edən Fransanın müstəmləkəçilik siyasətini qlobal səviyyədə ifşa edir. Eyni zamanda respublikamız Fransanın dünyanın bir sıra yerlərində nəzarət etdiyi ərazilərin yerli əhalisinin azadlıq mübarizələrinə yaxından dəstək verir. Bu baxımdan Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda keçirilən "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılan Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəçiliyinə qarşı qlobal platformaya çevrilib. Beynəlxalq qeyri-hökumət təşkilatı kimi yaradılmış Bakı Təşəbbüs Qrupunun əsas məqsədi kolonializm və neokolonializmə qarşı mübarizəni dəstəkləməkdir.

→ 10

# Sözümüz imzamız qədər dəyərlidir

## Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib

*Əvvəli 1-ci səh.*




Bildiyiniz kimi, Azərbaycan Respublikasının energetika naziri və xanım Simson Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədrləridir. Onlar genişlənməkdə olan böyük heyətin bir araya gətirilməsi və əlbəttə, Avropa İttifaqının bütün planlarımızın reallaşdırılmasında yer alması baxımından vacib rol oynayırlar. Enerjinin şaxələndirilməsi və enerji təhlükəsizliyi məsələlərində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı yeni təchizat coğrafiyasının yaradılmasına xidmət etmişdir.

Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub - biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqeyimiz hər zaman dəyişməz olub və bu gün də belədir - şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir.

Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə "Cənub qaz dəhlizi" tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar - interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük.

Burada, "Gülüstan" sarayında sonuncu - bir il əvvəlki görüşümüzdən bu yana bir neçə mühüm hadisə baş verib. Bildiyiniz kimi, adətən Məşvərət Şurasının toplantıları zamanı bu qrup görülmüş işləri və qarşıda duran məsələlərin həlli baxımından görüləcək əlavə tədbirləri nəzərdən keçirir. Ən başlıcası isə atılacaq birgə addımları planlaşdırır.

Ötən il baş verən vacib hadisələrdən biri Xəzər dənizinin Azərbaycana məxsus sektorunda, "Abşeron" qaz-kondensat yatağında təbii qazın kommersiya hasilatı oldu. Bu "Şahdəniz"dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir. "Abşeron" qaz-kondensat yatağı bizim gələcək şaxələndirmə layihələrimizin resurs bazasını təşkil edəcək. "Abşeron" layihəsinin ilk fazası artıq təsdiq edilib. Biz orada illik hasilatın 1.5 milyard kubmetr həcmində olmasını gözləyirik. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr həcm əlavə ediləcəkdir ki, onun böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaq.

Növbəti nailiyyət hesab etdiyim bir hadisə Azərbaycanın daha iki ölkə - Macarıstana və Serbiyaya qaz nəql etməsi oldu. Beləliklə, bizim Avropaya qaz təchizatımızın coğrafiyası genişlənmiş oldu. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan altısı Avropa ölkəsidir. Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində, ilk növbədə, "Cənub qaz dəhlizi" layihəsi dayanır. İkincisi isə onlar bizə Avropada mümkün qədər çox məntəqələri əhatə etməklə bağlı səylərimizi davam etdirməyə imkan verəcəkdir.

Azərbaycan qazına olan mövcud tələbat var, ixtiyarımızda mənbələr var və nəqliyyat marşrutlarımız yerindədir. Yeri gəlmişkən, onu da deyim ki, ötən il ərzində türkiyəli dostlarımızla fəal kommunikasiya nəticəsində biz Türkiyə vasitəsilə Trans-Balkan boru kəməri sistemindən istifadə etmək razılığına gəldik. Bu isə şaxələndirmə layihəsi daxilində növbəti şaxələndirmə deməkdir. Daha artıq alternativlər və seçimlər ola bilər. Çünki onların hər biri enerjinin şaxələndirilməsi, enerji təhlükəsizliyinin maksimum səmərəliliklə təmin olunması kimi vahid məqsədə xidmət edir.

Hesab edirəm ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur.

Bizim enerji layihələrimizlə bağlı daha bir məqam ondan ibarətdir ki, dost Birləşmiş Ərəb Əmirliklərini təmsil edən ADNOC şirkəti Abşeron layihəsinin səhmdarı oldu. Biz bunu alqışlayırıq, heyətimizə xoş gəlmisiniz. Bu, əlavə maliyyələşmə, təcrübə deməkdir və beynəlxalq əməkdaşlığı genişləndirəcəkdir. Bizimlə birgə çalışmaq arzusunda olan enerji şirkətlərindən çoxsaylı müraciətlər daxil olur. Bu müraciətlər həmin şirkətlərin fəaliyyət göstəricilərinə və bizim enerji gündəliyimizə əsasən nəzərdən keçirilir.

Gələcək planlarımıza gəldikdə, əlbəttə, bu gün biz onları geniş müzakirə edəcəyik. Mən onlardan yalnız bir neçəsini səsləndirmək istərdim. İlk növbədə, biz gələn ilin ilk rübündən etibarən "Azəri-Çıraq-Günəşli" dərin qaz layihəsi çərçivəsində təbii qazın hasilatını gözləyirik. Bu, çox böyük ehtiyata malik olmaqla ümidverici strukturdur. Uzun illərdir ki, "Azəri-Çıraq-Günəşli" bizim neft ixracımızın əsas mənbəyidir. Hazırda kəşfiyyata başlanılması ilə bağlı tərəfdaşlarımızla razılığa gəlmişik və bu əlavə töhfə olacaqdır. İlkin mərhələdə hasilat təqribən yarım milyard kubmetr olacaq, ancaq bir neçə il ərzində bu rəqəm 3-4 dəfə artacaqdır. Bu "Şahdəniz" və "Abşeron" yataqlarından hasil ediləcək həcmlərlə yanaşı, yeni mənbə olacaqdır.

Bununla yanaşı, bizim "Ümid" qaz-kondensat yatağının ikinci fazasının işlənilməsi ilə bağlı planlarımız var ki, potensial olaraq oradan da 3-4 il ərzində 2-3 milyard kubmetr qaz əldə etmək olar.

Beləliklə, bütün bu planlar tamamilə realdır, onlar müfəssəl təhlilə, məlumata, informasiyaya və bizim maliyyə resurslarına, habelə investorlarla razılaşmalarımıza əsaslanır. Layihələrin bəziləri investorlarla birlikdə icra olunacaq, bəziləri isə SOCAR-ın özü tərəfindən həyata keçiriləcək. Bütün bunlar onu göstərir ki, potensial var və artmaqdadır. Uzun illərdir ki, ortalıqda yayılan və Avropa istehlakçılarının artmaqda olan ehtiyaclarını ödəmək üçün "Azərbaycanda kifayət qədər qaz yoxdur" kimi bütün şayiələr bir daha onu göstərdi ki, onlar tamamilə əsassızdır və bizim potensialımızın qarşısını almaq, beynəlxalq birliyə və istehlakçılara yanlış mesaj göndərmək üçün Azərbaycana qarşı yürüdülən kampaniyanın bir hissəsi idi.

Azərbaycan, həmçinin "yaşıl enerji"yə keçid prosesində iştirak edir. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuşdur. Bizim bərpaolunan enerji layihələrimiz yüksək göstəricilər nümayiş etdirir. Ötən görüşümüzdən bəri sizə məlumat vermək istəyirəm ki, bu layihələr arasında keçən ilin oktyabr ayında Azərbaycanda açılışını etdiyimiz ilk böyük Günəş-elektrik stansiyası yer alır və bu stansiyanın gücü 230 meqavatdır. Bu stansiya bərpaolunan enerji sahəsində aparıcı şirkətlərdən biri "Masdar" tərəfindən inşa olunmuşdur və bu, yalnız başlanğıcdır. İmzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsasən 2030-cu ilədək biz 5 min meqavata qədər, yəni 5 qiqavat günəş və külək enerjisi istehsal etməyi planlaşdırırıq.

Bizim əsas investorlarımız Birləşmiş Ərəb Əmirliklərindən "Masdar" və Səudiyyə Ərəbistanından olan "ACWA Power" şirkətləridir. Həmçinin digər ölkələrdən olan şirkətlər də bizimlə çalışır. Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng pontensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji"-nin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq.

Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla, Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə ki, bərpaolunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq.

Bu da "Cənub qaz dəhlizi"nə əlavə bir töhfə olacaqdır. "Cənub qaz dəhlizi" artıq 3 ildir ki, fəaliyyətdədir, bu layihə həqiqətən də uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki "Cənub qaz dəhlizi"nin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı.

Beləliklə, biz indi vacib bir məqama gəlirik. Bu məqamın tərəfdaşlıq və əməkdaşlığın qurulması üçün enerjinin və qazıntı yanacağının bir alət və vasitə olduğunu görürük. Qazıntı yanacağı məsələsi ilə bağlı sonuncu məqam. Biz indi qazıntı yanacağının bir növ yalnız problem yaradan bir məsələ olması meylini görürük. Biz ədalətli olmalıyıq və eyni zamanda neft və təbii qaz ehtiyatları ilə zəngin olan ölkələrə münasibətdə ədalətli olmalıyıq. Bu ölkələrin günahı deyil ki, onlarda neft və qaz var. Onlar buna görə günahlandırılmamalı və onlara qarşı ayrı-seçkilik olmamalıdır. Hesab edirəm ki, qazıntı yanacağına malik olan ölkələrin fəaliyyəti onların ətraf mühitin müdafiəsi, "yaşıl enerji"yə keçid məsələlərini necə həll etdikləri baxımından qiymətləndirilməlidir. Yalnız bundan sonra, ədalətli təhlildən sonra bu ölkələr barədə mühakimə yürütmək olar. Əks təqdirdə, biz neft və qaz istehsal edən ölkələr və bu resurslara malik olmayan ölkələr arasında sanki ayırıcı xətlər görəcəyik.

Bu məsələ haqqında danışarkən, əlbəttə, burada bu masada dünyanın aparıcı maliyyə institutlarının nümayəndələrinin olduğunu nəzərə alaraq diqqətinizi maliyyələşmə məsələsinə yönəltmək istəyirəm. "Cənub qaz dəhlizi"nin genişlənməsinin və təbii qaza aid istənilən digər layihənin maliyyələşməsi elə bir şəkildə aparılmalıdır ki, bizim əsas hədəfimizə mane olmasın.

Avropada Azərbaycan qazına böyük tələbat var idi və olmaqda qalır. Bizə bir çox ölkələr müraciət etmişdir, dediyim kimi, artıq altı ölkə bizim təbii qazı alır. Əlavə bir neçə ölkə ilə danışıqlar aparılır. Qaza tələbat var və bizim resurslarımız var, bizim infrastrukturumuz var. Hesab edirəm ki, Avropa maliyyə institutlarından maliyyələşmə, ən azından bu layihənin maliyyələşməsi real yanaşmaya əsaslanmalıdır və ümumi hal almış qazıntı yanacağına qarşı meyillərin kölgəsi altına düşməməlidir.

Biz hamımız nələrin baş verdiyini bilirik. Azərbaycan, qeyd etdiyimiz kimi "yaşıl enerji"yə keçid prosesinin aktiv fazasındadır. Lakin, eyni zamanda heç kim bu faktı dana bilməz ki, ən azından yaxın gələcəkdə qazıntı yanacağı olmadan dünya inkişaf edə bilməz.

Sonuncu məsələ, Azərbaycana COP29-a sahiblik edən ölkə olmaq şərəfi nəsib olmuşdur. Keçən ilin dekabrında qərar qəbul olunan kimi biz dərhal, yalnız bir səbəbdən müxtəlif QHT-lər və media təşkilatlarının hücumuna məruz qaldıq. Çünki bizim neftimiz var və bu, bizim ən böyük nöqsanımız hesab olunmuşdur. Baxmayaraq ki, qeyd etdiyim kimi bu, qüsur deyil, Allahdan bir hədiyyədir. Lakin bizə hücum edərək dedilər ki, necə ola bilər qazıntı yanacağı ilə zəngin olan bir ölkə COP-a evsahibliyi edə bilər. Gəlin, bu məsələyə başqa bir bucaq altında baxaq. Bəli, bizim kifayət qədər neftimiz, kifayət qədər qazımız var. Biz növbəti 100 il ərzində bərpaolunan enerji resursları olmadan yaşaya bilərik. Bizim bütün ehtiyatlarımız təsdiq edilib və hər kəs bunu bilir.

Lakin iqlim dəyişikliyi ilə bağlı olan bu qlobal tədbirə evsahibliyi etmək istəyimizin olması faktı bizim iradəmizi nümayiş etdirir. Bizə buna görə hücum edilməməlidir, biz təqdir edilməliyik. Biz heç bir yanlış iş görməmişik, lakin qərar qəbul olunan kimi bizə qarşı dərhal əlaqələndirilmiş, konsolidasiya olunmuş və çox ədalətsiz hücum edildi.

Əvvəlki illərdə Azərbaycana qarşı çoxlu hücumlar olmuşdur, biz buna adət etmişik, biz özümüzü müdafiə edə bilərik. Lakin mən sizə, sadəcə, məlumat vermək istəyirəm ki, COP29-un Azərbaycanda təşkil edilməsi qərarı, yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir və bizim tədbirə ev sahibliyi etmək, bu işə töhfə vermək istəyimiz "yaşıl gündəliy"imizi nümayiş etdirir.

Bununla da çıxışımı burada bitirirəm. Bir daha bizimlə bir yerdə olduğunuz üçün təşəkkür edirəm. Fürsətdən istifadə edərək hamınızı COP29-a aparan bu mühüm yolda bizim tərəfdaşımız olmağa dəvət etmək istəyirəm. Təşəkkür edirəm.

* * *

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov:**

- Zati-aliləri Prezident Əliyev, biz Sizin dəyərli çıxışınıza görə təşəkkürümüzü bildiririk və bu Məşvərət Şurası yarandığı gündən "Cənub qaz dəhlizi"nə böyük töhfə vermişdir. İndi bu platforma məhz Sizin baxışlarınıza uyğun olaraq genişlənir. Çünki Yaşıl Enerji Məşvərət Şurası da var və biz Sizin davamlı dəstəyinizə ümid edirik. İndi isə mən sözü zati-aliləri, Albaniyanın Baş naziri cənab Edi Ramaya vermək istəyirəm. Cənab Baş nazir, söz Sizindir.

* * *

Albaniyanın Baş naziri çıxış etdi.




## Baş nazir Edi Ramanın çıxışı

- Möhtərəm Prezident Əliyev, əziz dost. Hörmətli dostlar.

Bu gün mənə göstərilən qonaqpərvərliyə görə hədsiz dərəcədə minnətdaram. Həmçinin cənab Prezidentin Azərbaycan və Albaniya arasında əməkdaşlığımızın mahiyyətini, habelə şəxsi münasibətimizi təsvir edən ifadələri məni qürurlandırdı.

Səkkiz il əvvəl nazirlər səviyyəsində keçirilən iclasda Prezident Əliyev demişdir ki, "Cənub qaz dəhlizi" beynəlxalq əməkdaşlığın unikal formatının təməlini qoyur. Bu, ölkələr, şirkətlər və maliyyə institutları arasında olan yeni əməkdaşlıq təcrübəsi gələcək illər ərzində bir çox digər sahələri də əhatə edəcək. Cənab Prezident bunu proqnozlaşdıra bildi.

Həqiqətən də bu yeni Enerji İpək Yolu olan "Cənub qaz dəhlizi" sıx əməkdaşlıq baxımından bir körpü oldu və ölkələr, şirkətlər, maliyyə institutlarını elə bir formatda bir araya gətirdi ki, bu layihənin təklif etdiyi imkanlara dair istəyi daha da artırdı. Bu gün bu format elə bir körpü rolunu oynayır ki, artıq onun tərkib hissəsini "yaşıl enerji" təşkil edir.

Bu gün hamımız "Cənub qaz dəhlizi"nin bir çoxlarının həyatını dəyişdirdiyinin şahidiyik və bu layihə Avropanı daha da təhlükəsiz etdi. Avropanın ehtiyatlarını artırmaqda olduğu bir vaxtda, "Cənub qaz dəhlizi" heç şübhəsiz ki, Avropa İttifaqına boru kəməri ilə nəql edilən təbii qazın nadir və sabit mənbələrindən biri olmaqda davam edəcək. Avropaya Rusiyadan nəql edilən qaz payının 40 faizdən 8 faizə və tezliklə sıfra bərabər olacağını, "yaşıl gündəlik" və karbonsuzlaşma məsələlərinin olduqca aktual olduğunu nəzərə alaraq, Azərbaycan qazı və Xəzər hövzəsi bizim birgə gələcəyimiz üçün mühüm rol oynayır.

Albaniyaya gəldikdə, biz strateji baxımdan Trans-Adriatik boru kəmərinin marşrutu üzərində yerləşirik və bu, "Cənub qaz dəhlizi" layihəsinin mühüm halqasıdır. Əlbəttə ki, biz bu transformasiya imkanına malik dəhlizin imkanlarından istifadə etmək niyyətindəyik. Bunun üçün biz bərpaolunan enerji layihələrinə sərmayə qoymağı və dayanıqlı enerji infrastrukturu yaratmağı hədəfləyirik. Hazırda Albaniya tam şəkildə bərpaolunan enerjidən faydalanan ölkədir. Lakin bizə enerji mənbələrinin şaxələndirilməsi lazımdır və biz bu istiqamətdə çalışırıq. Bizim üçün şaxələndirilmə əsasən hidroelektrik enerjisi deməkdir.

Bərpaolunan enerji layihələrinə sərmayə qoyuluşu bizim üçün həlledicidir və son illərdə bu, Albaniyanı "yaşıl keçid" və enerji sektorunda innovasiyalar baxımından təbii məkana çevirib. Bu baxımdan "Cənub qaz dəhlizi" kontekstində "yaşıl hidrogen"ə dair dialoq başladılması çox vacibdir.

Bu, bir daha uzaqgörən təşəbbüsün dəyərini təsdiq edir. İlk olaraq bu, ətraf mühitin qorunması ilə bağlı narahatlıqla əlaqədar alət təklif edir və dəhlizin qlobal dayanıqlılıq hədəfləri ilə uyğunluğunu təşviq edir. İkincisi, "yaşıl hidrogen" yeni iqtisadi imkanlar açır, təmiz enerji sektorunda innovasiyanı, tədqiqatı və inkişafı təşviq edir. Nəhayət bu, dəhlizi karbonsuzlaşmanı hədəfləyən dünyanın dəyişməkdə olan tələblərinə cavab verən uzaqgörən layihə olaraq təqdim edir.

Diqqətinizə çatdırmaq istərdim ki, azərbaycanlı dostlarımız mövcud infrastrukturumuzun inkişafı üçün ən əlverişli ssenarilərin müəyyən edilməsi və enerji sahəsinin çağırışlarına uyğunlaşdırılması baxımından təcrübələrini bölüşərək bizə əvəzsiz töhfə verirlər. Buna görə dərin minnətdarlığımızı bildiririk.

Hazırda biz Albaniyanın qazlaşdırılması layihəsi üzərində işləyirik və Prezident Əliyevin dəstəyi sayəsində ənənələrin tarixən bizi məhrum etdiyi bir iş üzərində çalışırıq. Tariximizlə yaxından tanış olmayanlar üçün deyim ki, biz özümüzü hər zaman həm Qərbdən, həm də Şərqdən təcrid edərək, sanki əsl kommunizm uğrunda yeganə mübarizə aparan olmuşuq. Biz amerikan və sovet imperializmini rədd etmişik və Avropanın mərkəzində Şimali Koreyada yaşamışıq. Demək olar ki, bütün qaz və dəmir yolu sistemlərimiz ya mövcud olmayıb, ya da dünyadan təcrid vəziyyətdə olub.

Həmin səbəbdən biz inkişaf kursumuzun bu mərhələsinə böyük əhəmiyyət veririk. TAP çərçivəsində əldə etdiyimiz təcrübəyə əsasən biz tərəfdaşlarımızla birlikdə Albaniyanın cənubunda maye qaz terminalları inşa etməyi planlaşdırırıq.

Xanımlar və cənablar, Marko Polo Bakı ərazisində neft quyularının səpələndiyini, neftdən işıqlandırma və sağlamlıq məqsədləri üçün istifadə olunduğunu qeyd edirdi. Ancaq 1877-ci ildə Çarlz Marvin dünyaya sübut etmişdir ki, hətta İsa peyğəmbərdən əvvəl belə, bu gün Bakının yerləşdiyi Abşeron yarımadasından neft indiki İran, İraq, Hindistan və digər ölkələrin ərazisindən nəql edilirdi.

Keçmişdə Bakının nəhəng sərvəti Avropa və Asiya sivilizasiyalarının qızıl erasını dəstəkləyib. Bu gün həmin resurslar və həmin qaz yataqları bizim ölkələrin qızıl erasını dəstəkləmək potensialına malikdir. Bu, dekarbonizasiya və dayanıqlı enerji təchizatına əsaslanmış çoxtərəfli əməkdaşlıq, davamlı sülh və tərəqqi erasıdır.

Çıxışımın yekununda Prezident Əliyev tərəfindən qeyd edilmiş bir təşəbbüsə münasibət bildirmək istərdim. COP ilə bağlı məşəlin Azərbaycan tərəfindən götürülməsini və tədbirə evsahibliyi etməsini nəzərdə tuturam. Bu, böyük göstəricidir. Çünki qazıntı yanacağı ilə zəngin bir ölkə qərar verir ki, gəlin hamımız birlikdə düşünək - "yaşıl enerji"yə keçid necə real və bütün dünya üçün faydalı ola bilər. Bu mənada Azərbaycan və bu tədbirə evsahibliyi edən dəyərli şəxs ən yüksək təqdirə layiqdir. Cənab Prezident, çox təşəkkür edirəm. Sağ olun.

* * *

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri xanım Kadri Simson çıxış etdi.

*Ardı 3-cü səh.*

# Sözümüz imzamız qədər dəyərlidir

## Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib









### Komissar Kadri Simsonun çıxışı

- Sağ olun. Prezident Əliyev, Baş nazir Rama, Zati-aliləri, xanımlar və cənablar! Mən bu gün Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasının açılışında iştirak etməkdən məmnunam. İcazə verin, mən çıxışıma Prezident Əliyevin yenidən dövlət başçısı seçilməyi münasibətilə təbriklə başlayım. Həmçinin ötən il məhsuldar əməkdaşlığa görə həmkarım nazir Şahbazova təşəkkürümü bildirmək istəyirəm. Həmişə olduğu kimi burada - Bakıda səmimi qəbula görə hamınıza minnətdaram.

Mən artıq üçüncü dəfədir ki, Məşvərət Şurası çərçivəsində nazirlərin iclasında iştirak edirəm və elə bilirəm xoş bir təsadüfdür ki, biz keçmişə nəzər salmalıyıq və Avropa İttifaqı-Azərbaycan arasındakı bu tərəfdaşlıq layihəyə nə verib. Mən 2019-cu il dekabrın 1-də səlahiyyətlərimin icrasına başladım və həmin vaxt məhz TANAP qaz boru kəmərinin Avropaya çıxması anı idi və Azərbaycan qazının Avropa İttifaqına ilk axını bir il sonra - 2020-ci il dekabrın 31-də başladı. O vaxt COVID vaxtı idi, təmaslar çətin idi. Avropada bəziləri düşünürdü ki, "Cənub qaz dəhlizi" artıq başa çatmış bir missiyadır və buna daha çox diqqət yetirilməli deyil. Mən belə düşünmürdüm. Mən hər zaman gördüm ki, Azərbaycan etibarlı tərəfdaşdır və əməkdaşlığımızda onun genişləndirilməsi üçün güclü potensial var. Mən 2022-ci ildə buraya ilk iclasa gələndə dedim ki, necə etməliyik ki, məhz bizim münasibətlərimizin bütün potensialı daha da genişlənsin, bu dəhliz yeni bazarlara çıxsın və təmiz enerjiyə gəldikdə, biz öz işimizin miqyasını artıraq və bütün bunlar baş verdi.

Bu gün məhz qaz axını Avropaya "Cənub qaz dəhlizi"ndən gedir və 2021-ci illə müqayisədə bu, 46 faiz çoxdur. 2023-cü ildə Avropa İttifaqı Azərbaycandan 11 milyard kubmetr sabit və təhlükəsiz şəkildə qaz təchizatını qəbul etdi və Avropa İttifaqının üzv dövlətləri və genişlənməyə namizəd olan ölkələr bu qazın alınmasında maraqlıdırlar. Artıq dediyim kimi, biz ötən il sizin məhz Panavropa təchizatına çevrildiyinizi gördük və bu baxımdan, əslində, bu həcmlərin artırılması üzərində işləyirik. Biz ümidvarıq ki, Azərbaycandan daxil olan təbii qaz Avropanın enerji sistemində enerji keçidi zamanı mühüm rol oynayacaqdır. Rusiyanın artan zorakılığı və davam edən əsassız müharibə şəraitində tamamilə aydındır ki, Avropa üçün, əslində, işlərimiz Rusiya ilə enerji sahəsində əvvəlki kimi olmayacaqdır. Çünki hazırda biz görürük ki, digər etibarlı enerji tərəfdaşlarımız var və onlardan biri məhz Azərbaycandır. Sizi əmin edə bilərəm ki, Avropa İttifaqının Azərbaycanla əməkdaşlığı uzunmüddətlidir və bu səbəbdən Azərbaycan "Cənub qaz dəhlizi"nin genişləndirilməsi üzərində işləyir. 2027-ci ilə qədər qaz ticarətini iki dəfə artıracağıq və ən vacibi isə Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji əməkdaşlığı öz çevikliyini və dinamikliyini göstərir.

"Cənub qaz dəhlizi", həmçinin bərpa edilən enerji və elektrik enerjisi sahəsində əməkdaşlıq üçün foruma çevrilə bildi. Bu, inanılmaz nəticədir və layihənin nə dərəcədə gələcəyə yönəlmiş və açıq olduğunu sübuta yetirdi. Biz təmiz enerjini Avropa İttifaqı-Azərbaycan arasında ikitərəfli münasibətlərin əsas hissəsinə çevirdik. Biz burada, küləklər şəhərindəyik. Bu, Xəzər dənizində böyük bərpaolunan enerji potensialının növbəti bir nümunəsidir. Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerjinin həcmini üç dəfə və enerji səmərəliliyinin iki dəfə artırılması ilə bağlı qlobal təşəbbüsə dəstək olaraq COP28-də Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşlara qoşulmuşdur. Həmin beynəlxalq təşəbbüs, beynəlxalq ticarət və sərmayə üçün daha yaxşı şəraitləri yaratmaq və milli səviyyədə enerji keçidini sürətləndirmək üçün ölkələr daxilində aydın şəkildə müəyyən edilmiş öhdəliyə uyğundur. Mən bu sahədəki təşəbbüsü alqışlayıram və biz hazırda Azərbaycanla işləmək məqsədilə Avropa İttifaqının bərpaolunan enerji şirkətlərinin artan marağını görürük. Bu nazirlər iclasında Avropa İttifaqının külək enerjisi şirkətləri ilə Anlaşma memorandumunun imzalanması çox mühüm addımdır. Bərpaolunan enerjiyə aid bu öhdəlik, həmçinin Avropa ilə yeni qarşılıqlı layihələrə yol açır.

Biz bu gün Cənubi Qafqaz ilə Avropa İttifaqı arasında "yaşıl enerji" dəhlizi layihəsini müzakirə edəcəyik. Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi təşəbbüsü region üçün xüsusi önəm daşıyır. O, həmçinin Avropa İttifaqına gələcəkdə elektrik enerjisi ixracında Azərbaycanı əsas tərəfdaş kimi müəyyən edir. Bu vacibdir, çünki Avropa İttifaqında elektrik enerjisinin istehlakı artacaqdır. 2030-cu ilə qədər 16 faizdən artıq və 2040-cı ilə qədər təxminən 80 faizə qədər elektrik enerjisi tələbatının artması nəzərdə tutulur. Bu, gələcək infrastruktur layihələri, həmçinin bizim üçün vacibdir. Təsadüfi deyil ki, Azərbaycan noyabrda BMT-nin növbəti İqlim Dəyişmələri Konfransına ev sahibi seçilmişdir və bu da Sizin yorulmaz fəaliyyətinizin nəticəsidir. Kompleks infrastruktur layihələrinin icrasında bacarığınızın təzahürüdür və təmiz keçidlə bağlı Sizin gələcək baxışlarınızdır. Şübhə etmirəm ki, bu, uğurlu COP29 olacaqdır və tam əminliklə Siz Avropa İttifaqının dəstəyinə arxalana bilərsiniz.

Biz bütün maraqlı dairələrlə işləməyə hazırıq və enerji səmərəliliyi ilə bağlı olan təşəbbüslərin icrasına töhfə vermək istəyirik ki, həm ikitərəfli, həm qlobal metan qazı təşəbbüsü xətti ilə neft və qaz sənayesindən metanın havaya atılmasının azaldılması məsələsində çalışmağa hazırıq. Təbii ki, bu, bizim strateji məqsədlərimizdir.

Zati-aliləri, xanımlar və cənablar! Son illər ərzində "Cənub qaz dəhlizi" uğur hekayəsinə çevrildi. Bu hekayənin yeni qəhrəmanları var. Mən bu gün xüsusi məmnunluqla Baş nazir Ramanın yanında əyləşmişəm və masa arxasında Qərbi Balkanlar və Cənub Şərqi Avropadan və Avropa İttifaqından rəsmi nümayəndələri görürəm. Şadam ki, Avropa İttifaqı ilə Azərbaycan bu cür müsbət münasibətlər qurub. Biz "Cənub qaz dəhlizi" üzrə bütün tərəfdaşlarla başladığımız işin davam etməsini səmimiyyətlə arzulayırıq. Enerji şaxələndirməsini birlikdə sürətləndirə bilərik və iqlim neytrallığı üçün əmin yolla gedə bilərik.

Prezident Əliyev, çox səmimi qəbula görə bir daha Sizə təşəkkürümü bildirirəm və hamınıza diqqətinizə görə minnətdaram.

* * *

**Pərviz Şahbazov:** Komissar Simson, fəal həmsədrliyinizə görə təşəkkürümü bildirirəm və bizim şura çərçivəsində enerji sahəsindəki əməkdaşlığa verdiyiniz dəstəyə görə minnətdaram. Bununla bizim açılış sessiyamız başa çatır.

Cənab Prezident, cənab Baş nazir, bu gün bizimlə olduğunuza görə sizə təşəkkürümüzü bildiririk.

* * *

Qeyd edək ki, toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak ediblər.

Toplantı açılış sessiyasından sonra işini "Cənub qaz dəhlizi" və "yaşıl enerji" üzrə Nazirlər sessiyası", "Cənub qaz dəhlizi sessiyası: Gələcəyə baxış" və "COP29 fonunda "yaşıl enerji" sessiyası: bərpaolunan enerjinin imkanlarından istifadə" mövzularında plenar sessiyalarla davam etdirib.

Həmçinin Məşvərət Şurası çərçivəsində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin 6-cı iclası və "Dənizdə külək enerjisindən istifadənin inkişafı" üzrə Azərbaycan-Avropa İttifaqı dəyirmi masası keçirilib.

Tədbir çərçivəsində "yaşıl enerji" sahəsində sənədlər imzalanıb.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir və bu il tədbirin 10 ili tamam olur.

# Azərbaycan hər zaman Albaniyanın maraqlarını müdafiə edir

## Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Albaniyanın Baş nazirinə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasında iştirakına görə minnətdarlığını ifadə etdi.

Edi Rama da öz növbəsində bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının əhəmiyyəti qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlərə toxunuldu.



Prezident İlham Əliyevin Albaniyaya dövlət səfəri və Baş nazir Edi Ramanın əvvəllər ölkəmizə səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulandı. Dövlətimizin başçısı BMT və digər beynəlxalq təşkilatlarda Albaniyanın Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi və öz növbəsində Azərbaycanın da bu qurumlarda hər zaman Albaniyanın maraqlarını müdafiə etdiyini dedi. Görüşdə TAP layihəsinin əhəmiyyəti və onun genişləndirilməsi məsələləri müzakirə edildi, Albaniyanın bu sahədə önəmli rolu qeyd olundu. Albaniyanın qazlaşdırılması layihəsinin icrası ilə bağlı ölkəmiz tərəfindən investisiya qoyuluşu məsələlərinə də toxunuldu.

Söhbət zamanı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması və əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Albaniyanın Baş naziri ilə geniş tərkibdə görüşü



Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.

# Avropanın enerji təchizatında Azərbaycanın rolunun əhəmiyyəti var

## Prezident İlham Əliyev Avropa İttifaqının energetika məsələləri üzrə komissarını qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Kadri Simson İlham Əliyevə prezident seçkilərində qələbə, Azərbaycanın COP29-a evsahibliyi etməsi və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu yubiley iclası münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Avropanın enerji təchizatında Azərbaycanın rolunun əhəmiyyətini və dayanıqlılığını vurğuladı.



Söhbət zamanı gələcəkdə enerji növləri ilə yanaşı, bərpaolunan enerji layihələrinin də həyata keçirilməsinin perspektivləri və Azərbaycanda icra olunan layihələrdə Avropa şirkətlərinin investor qismində daha fəal rol oynaması ilə bağlı imkanlar müzakirə olundu. Həm COP29, həm də enerji əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində gələcək addımlar və fəaliyyət planı ilə bağlı fikir mübadiləsi aparıldı, ölkəmizin qlobal metan azaldılması təşəbbüsünə qoşulması çox yüksək qiymətləndirildi.

# Azərbaycan ilə İtaliya şirkətlərinin birgə fəaliyyəti məmnunluq doğurur

## Prezident İlham Əliyev İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi nazirini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Cilberto Piketto-Fratin İlham Əliyevi prezident seçkilərində qələbəsi və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. İtaliyalı nazir bu il ölkəsinin G7 formatının rəhbəri qismində çıxış etdiyini deyərək, bu əməkdaşlıq formatında COP29-a evsahibliyi edən Azərbaycan tərəfinin G7 ölkələrinin ekologiya və mineral ehtiyatlar nazirlərinin xüsusi görüşünə qatılmasının vacibliyini bildirdi və bununla bağlı dəvəti çatdırdı.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunuldu, çox sayda İtaliya şirkəti, o cümlədən "Ansaldi", "Leonardo", "Maire Tecnimont" və bir sıra digər şirkətlərin Azərbaycan ilə əməkdaşlıq etməsi, işğaldan azad olunmuş ərazilərimizdə İtaliya şirkətlərinin fəaliyyət göstərməsi məmnunluqla qeyd olundu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident.

Prezident seçkilərindəki qələbəniz münasibətilə Sizi təbrik edir və yeni səlahiyyət müddətinizdə Zati-alinizə uğurlar arzulayıram.

Fürsətdən istifadə edərək, Azərbaycanla əməkdaşlığımızı qarşılıqlı mənafeyimiz naminə davam etdirməyə hazır olduğumuzu bildirirəm. Əminəm ki, əsasını strateji enerji əməkdaşlığımızın təşkil etdiyi ikitərəfli dialoqumuz gələcəkdə digər sahələrdə də genişlənəcəkdir.

Mən sülhün möhkəmləndirilməsi, beynəlxalq hüquqa hörmət və mehriban qonşuluq münasibətləri istiqamətində Sizinlə birgə işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

Hörmətli Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Kiriakos MİTSOTAKİS,***
***Yunanıstan Respublikasının Baş naziri***

# Albaniyanın Baş naziri Edi Ramanın Azərbaycana işgüzar səfəri başa çatıb



**Albaniya Respublikasının Baş naziri Edi Ramanın Azərbaycan Respublikasına işgüzar səfəri martın 1-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Edi Ramanın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Albaniya Baş nazirini hava limanında Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

## Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I) 11.2.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"11.2.4. bərpa olunan enerji mənbələrinin istehsalı üçün.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 fevral 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 131 (Cild I) ilə təsdiq edilmiş "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin 2.1.4-cü yarımbəndində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs" sözləri "İnnovasiyalar Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2024-cü il*

*"Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası"na Əlavə*

## Satışından enerji effektivliyi fonduna vəsait köçürülməsi nəzərdə tutulan enerji resurslarının siyahısı və köçürülən vəsaitin məbləği (ƏDV-siz)

| Sıra №-si | Enerji resursları | Köçürülən vəsaitin məbləği (faizlə) |
|---|---|---|
| | **Ölkədaxili istehsalçı tarifi ilə satışdan daxil olan vəsaitdən:** | |
| 1. | Elektrik enerjisi | 0,03 |
| 2. | Təbii qaz | 0,03 |
| 3. | Avtomobil benzini (Aİ-92) | 0,5 |
| 4. | Dizel yanacağı | 0,5 |

## Enerji effektivliyi fondunun yaradılması və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Enerji effektivliyi fondu (bundan sonra - Fond) yaradılsın.

2. "Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

3. Müəyyən edilsin ki:

3.1. Fond enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə yaradılır və onun vəsaitinin sərəncamçısı Enerji Məsələlərini Tənzimləmə Agentliyi qismində Azərbaycan Respublikasının Energetika Nazirliyidir;

3.2. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın 2.2-ci bəndinə uyğun olaraq, qiymətlərinə dövlət tənzimlənməsi tətbiq olunmayan enerji resurslarının satışından Fonda köçürüləcək vəsaitin formalaşdırılması barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2024-cü il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Almaniya sülh sazişinin imzalanması üzrə danışıqları dəstəkləyir

**Milli Məclisin Sədri Sahibə Qafarova martın 1-də ölkəmizdə səfərdə olan Almaniya Federativ Respublikası Bundestaqının Hüquq siyasəti komitəsinin sədri Elizabet Vinkelmayer-Bekerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Azərbaycan parlamentində salamlayan spiker ümidvar olduğunu bildirib ki, bu səfər ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə töhfə verəcək. O, Azərbaycan və Almaniyanın dost və tərəfdaş ölkələr olduğunu, hər iki tərəfin ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafında maraqlı olduğunu qeyd edib.

Görüşdə ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli siyasi dialoqun, xüsusilə dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlərin və görüşlərin müstəsna rolu vurğulanıb. Milli Məclisin Sədri Prezident İlham Əliyevin bu il Münxen Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində də kansler Olaf Şoltsla görüşdüyünü və müzakirələr apardığını xatırladıb.

Görüşdə spiker Sahibə Qafarova hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh prosesinin perspektivləri, münasibətlərin normallaşdırılması, etimad mühitinin yaradılması və sülhün təsis edilməsi üçün vacib əhəmiyyət kəsb edən məqamlar barədə qarşı tərəfə ətraflı məlumat verib.

Milli Məclisin Sədri Münxendə Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin kansler Olaf Şoltsun vasitəçiliyi ilə bir araya gəldiyini, son 2 gündə isə Almaniya paytaxtında Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin də sülh sazişi üzrə danışıqlar apardığını xatırladaraq, bu məsələdə Almaniyanın neytral mövqeyini müsbət qiymətləndirib.

Milli Məclisin Sədri qarşı tərəfin diqqətinə çatdırıb ki, Ermənistan yalan və həqiqətdən uzaq iddialarla çıxış edir və beynəlxalq ictimaiyyəti yanlış məlumatlandırmağa çalışır.

Sahibə Qafarova görüşdə qeyd edib ki, bu gün Qərbdəki bəzi dairələr Azərbaycanın guya Ermənistana hücum edəcəyi haqda absurd, yalan iddialar ortaya atırlar. O, bir daha vurğulayıb ki, bu iddiaların heç bir əsası yoxdur. Azərbaycan bu gün işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparır və yeni şəhərlər, kəndlər salınır. Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlər öz torpaqlarına qayıdırlar. Belə olduğu halda, Azərbaycanın Ermənistana hücum edəcəyi ilə bağlı iddialar tamamilə qəbuledilməzdir.

Milli Məclisin Sədri, həmçinin bu gün Avropada bəzi dairələr tərəfindən Azərbaycana qarşı ikili standartları kəskin tənqid edib. O, diqqətə çatdırıb ki, Azərbaycan torpaqları 30 il ərzində Ermənistan tərəfindən işğal altında saxlanılıb. İşğal dövründə 9 şəhər və yüzlərlə kənd, tarixi, mədəni, dini abidələrimiz tamamilə dağıdılıb, 1 milyon vətəndaşımız qaçqın və məcburi köçkün düşüb. Azərbaycan 30 il ərzində ədalətin, beynəlxalq hüququn bərpa olunmasını gözləyib. Buna baxmayaraq, beynəlxalq ictimaiyyət Ermənistana qarşı heç bir sanksiya tətbiq etməyib. Azərbaycan özü ərazilərini işğaldan azad edib, beynəlxalq hüququn norma və prinsiplərinin icrasını təmin edib. 30 illik işğala baxmayaraq, məhz Azərbaycan regionda uzunmüddətli sülhün əldə olunması təşəbbüsü ilə çıxış edib, beynəlxalq hüququn 5 əsas prinsipi, o cümlədən bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi mətnini hazırlayaraq, Ermənistana təklif edib.

Spikerin sözlərinə görə, Azərbaycan dəfələrlə bildirib ki, sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur və biz müsbət nəticə əldə etmək üçün səylərimizi davam etdiririk.

Milli Məclisin Sədri bununla yanaşı, 250 min azərbaycanlının Ermənistandan deportasiya olunduğunu və qaçqın həyatı yaşamağa məcbur olduğunu bildirib. Sahibə Qafarova deyib ki, bu gün də 250 min azərbaycanlının hüquqları haqqında heç kəs danışmır və bu da ikili standartların nümunəsidir.

Bundestaqın Hüquq siyasəti komitəsinin sədri Elizabet Vinkelmayer-Beker görüş və müzakirələr aparılması üçün imkan yaradılmasına görə minnətdarlığını bildirərək, regiona səfərlərinin məqsədləri barədə məlumat verib.

O, sülh sazişinin imzalanması, etimad mühitinin yaradılması üzrə danışıqları dəstəklədiklərini bildirərək, deyib ki, Almaniya ərazi bütövlüyü və sülh məsələsində Azərbaycanla birlikdədir. Komitə sədri vurğulayıb ki, Qarabağ beynəlxalq hüquq baxımından hər zaman Azərbaycanın ərazisi olub. Elizabet Vinkelmayer-Beker ümidvar olduğunu bildirib ki, aparılan danışıqlar müsbət nəticə verəcək və tərəflər arasında sülh sazişinin imzalanması mümkün olacaq.

Görüşdə ikitərəfli əməkdaşlıq, parlamentlərimiz arasında münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Almaniya Bundestaqının nümayəndələri Milli Məclisdə olublar



**Martın 1-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin üzvlərinin ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Hüquq siyasəti komitəsinin nümayəndə heyəti ilə görüşü keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qonaqları salamlayaraq, xalqlarımız arasında münasibətlərin tarixi köklərindən, parlamentlərarası əlaqələrimizin səmərəli təcrübəsindən söz açıb, Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsində almaniyalı mütəxəssislərin rolunu qeyd edib.

Birinci vitse-spiker Azərbaycan və Ermənistan arasında normallaşma prosesi və sülh perspektivləri barədə qonaqlara məlumat verib. Azərbaycanın normallaşma və sülh gündəliyinə sadiqliyini vurğulayan Əli Hüseynli bu prosesdə Avropa strukturlarının obyektivliyi, xüsusən Almaniyanın ədalətli mövqeyi ilə bağlı Azərbaycan xalqının gözləntilərini diqqətə çatdırıb.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycanın Almaniya ilə əlaqələrə böyük önəm verdiyini qeyd edib. O, torpaqları 30 il Ermənistanın işğalı altında olan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə bərpa etməsindən sonra bəzi Qərb dairələrində, o cümlədən Avropa İttifaqı strukturlarında ölkəmizə qarşı qarayaxma və böhtan kampaniyalarının qəbuledilməz olduğunu diqqətə çatdırıb.

Görüşdə çıxış edən komitə sədrlərinin müavinləri Tahir Kərimli və Qüdrət Həsənquliyev torpaqlarımızın uzun illər ərzində işğalı faktına Avropa dairələrinin biganə və qərəzli münasibətindən bəhs ediblər, Azərbaycan və Ermənistan arasında sülh və etimad mühiti yaradılmasının vacib məqamları haqqında fikirlərini bölüşüblər.

Alman Bundestaqının Hüquq siyasəti komitəsinin nümayəndə heyətinin rəhbəri Elizabet Vinkelmayer-Beker, komitə üzvləri Sonya Ayxvede, Canan Bayram Cənubi Qafqazda sabitliyin, əməkdaşlığın və rifahın inkişafı baxımından sülhün davamlılığının önəmini vurğulayıblar, bölgədəki vəziyyət və ölkəmiz haqqında doğru təəssüratlara malik olmaq üçün buradakı proseslərlə birbaşa tanış olmağın vacibliyini bildiriblər.

Görüş tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi ilə davam etdirilib.

***"Azərbaycan"***

# Əhalisi 3 min nəfərdən az olan bələdiyyələr digər bələdiyyələrlə birləşdiriləcək



**Martın 1-də Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihələri müzakirə edilib.**

Komitə sədri Siyavuş Novruzov ilk olaraq "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" qanunda nəzərdə tutulan dəyişiklikləri diqqətə çatdırıb. Bildirib ki, layihəyə əsasən ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin digər bələdiyyələrlə birləşdirilməsi nəzərdə tutulur. Qeyd olunur ki, birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir.

Layihədə bildirilir ki, birləşən hər bir bələdiyyə birləşmə ilə bağlı rəyini baxılmaq üçün Milli Məclisə təqdim edir. Milli Məclis həmin bələdiyyənin digər bələdiyyə ilə birləşdirilməsi ilə bağlı qanunvericiliyə müvafiq surətdə qərar qəbul edir. Yaranan bələdiyyənin adı birləşən bələdiyyələr arasında əhalisinin sayı ən çox olan bələdiyyənin adına uyğun müəyyən edilir.

Sonra Siyavuş Novruzov "Bələdiyyələrin statusu haqqında" qanuna təklif edilən dəyişikliklər barədə məlumat verib. O, təklif edilən dəyişikliklərin "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıdığını söyləyib.

Gündəliyin digər məsələsini - "Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsini təqdim edən komitə sədri bildirib ki, sənəddə rayonun ərazisində yeni salınmış yaşayış məntəqəsinin Şəfəq adlandırılması, Şəfəq yaşayış məntəqəsinə qəsəbə statusunun verilməsi və həmin qəsəbənin Azərbaycan Respublikasının ərazi vahidlərinin dövlət reyestrinə daxil edilməsi, Şəfəq qəsəbəsi mərkəz olmaqla Şəfəq qəsəbə inzibati ərazi dairəsinin yaradılması və ərazi vahidlərinin dövlət reyestrinə daxil edilməsi təklif olunur.

Komitə üzvləri dəyişikliklərin mütərəqqi xarakter daşıdığını qeyd ediblər. Millət vəkilləri bələdiyyələrin birləşdirilməsinin onların gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, sosial-iqtisadi inkişafı baxımından əhəmiyyətindən söhbət açıblar.

Hər üç qanun layihəsi müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# "Cənub qaz dəhlizi" tək qalmayacaq

## Azərbaycandan Avropaya "yaşıl enerji" dəhlizi də açılacaq

**Bu, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclasıdır. Keçən ildən başlayaraq bu tədbirlə yanaşı, Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin iclası da keçirilir.**

2021-ci ildə koronavirus pandemiyası səbəbindən videoformat şəklində keçirilən yeddinci toplantı istisna olmaqla, qalan iclasların hamısına Azərbaycan evsahibliyi edib. Bu da "Cənub qaz dəhlizi" kimi möhtəşəm layihənin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğunu bir daha təsdiq edir. Bu, həmçinin dövlətimizin başçısı İlham Əliyevin dünyadakı nüfuzundan qaynaqlanan bir reallıqdır.

"Cənub qaz dəhlizi"nin təməli Bakı yaxınlığındakı Səngəçal terminalında 2014-cü il sentyabrın 20-də, "Əsrin müqaviləsi"nin 20 ilinin tam olduğu gün qoyulub. Növbəti ilin əvvəlindən isə ildə bir dəfə Bakıda toplaşan Məşvərət Şurası görülən və görüləcək işlərin müzakirə edildiyi platformaya çevrilib. Bu baxımdan həmin toplantıların "Cənub qaz dəhlizi"nin gerçəkləşməsində müstəsna rolu olub.

"Cənub qaz dəhlizi" bir-birinə calanan üç kəməri - genişləndirilmlş CQBK-nı (Cənubi Qafqaz Boru Kəməri), TANAP-ı (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ı (Trans-Adriatik Qaz Boru Kəməri) birləşdirən 3500 kilometrlik ixrac xəttidir. 2018-ci ilin may ayından istifadəyə verilib. Həmin ilin iyun ayından Azərbaycan qazı TANAP-la Türkiyəyə, 2020-ci ilin son günündən isə TAP-la Avropaya çatdırılıb.

Hazırda Azərbaycan qazı "Cənub qaz dəhlizi" ilə 8 ölkəyə - Gürcüstana, Türkiyəyə, Bolqarıstana, Yunanıstana, İtaliyaya, Rumıniyaya, Macarıstana və Serbiyaya nəql edilir.

Azərbaycandan qaz ixrac etmək istəyən ölkələrin sayı getdikcə artır. Bir sözlə, Azərbaycan artıq etibarlı tərəfdaş kimi də böyük nüfuz və etibar qazanıb.

Bunu Prezident İlham Əliyev Bakıda, Gülüstan sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında çıxış edərkən də vurğulayıb. Dövlətimizin başçısı "Cənub qaz dəhlizi"nin artıq üç ildir fəaliyyət göstərdiyini qeyd edərək onun bir uğur hekayəsi, Avrasiya məkanında mühüm infrastruktur layihələrindən biri olduğunu deyib. Prezident "Cənub qaz dəhlizi"nin eyni zamanda enerji təhlükəsizliyi, əməkdaşlıq layihəsi olduğunu qeyd edib: "Çünki bu marşrut üzərində yerləşən ölkələr arasında işbirliyi olmadan bu layihəni həyata keçirmək mümkün olmazdı".

Məşvərət Şurasının keçənilki toplantısından bəri "Cənub qaz dəhlizi"nin salnaməsinə yeni uğurlar yazılıb. Belə ki, Azərbaycan qazına artan tələbat qarşıya bir sıra vəzifələr qoyur. Onlardan biri də ixrac infrastrukturunun şaxələndirilməsidir. Ötən il dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun fəaliyyətə başlaması göstərdi ki, nəzərdə tutulan işlər uğurla gerçəkləşir. İki ölkə arasında bu yeni xəttin tikintisinə 2023-cü il fevralın 1-də başlanmışdı və tamamlanması da məhz planlaşdırıldığı vaxt - ilin sonunda baş verdi. Bu kəmər Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Serbiyanın gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanı da olacaq ki, bu da ölkənin ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq.

İnterkonnektorun işə salınmasında Prezident İlham Əliyevin iştirak etməsi ölkəmizin Avropanın enerji təchizatındakı rolunu, etibarlı tərəfdaş kimi qazandığı hörməti və ümumən Prezidentimizin və dövlətimizin nüfuzunu aydın göstərən daha bir önəmli faktdır.

Azərbaycanın enerji siyasətinin növbəti reallığı "yaşıl enerji"nin inkişafı ilə bağlıdır. Ölkəmiz bu sahədə də ön sıralardadır. Artıq bir neçə layihəyə uğurlu start verilib. Keçən il oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası müvəffəqiyyətlə istismara daxil olub. Ölkəmizin geniş bir ərazisi - işğaldan azad olunmuş bölgələrimiz Prezident tərəfindən "yaşıl enerji" zonası elan edilib. Bərpaolunan enerji mənbələri ilə zəngin olan Naxçıvan da həmçinin "yaşıl enerji" zonası elan edilib və burada bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Hədəf bərpaolunan enerjinin payını ölkənin elektrik enerjisi üzrə ümumi qoyuluş gücündə 2027-ci ilədək hazırkı 20 faizdən 33 faizə yüksəltməkdir. "Yaşıl dünya naminə həmrəylik ili" bu yolda inamlı və uğurlu addımlar atmağa imkan verir. Bir-birinin ardınca həyata keçirilən məqsədyönlü tədbirlər də bunu göstərir.

Həmin tədbirlər sırasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının iclasında "SOCAR Green" MMC şirkətinin təsis edilməsi qərarının verilməsi özünə önəmli yer aldı.

Bərpaolunan enerji, "yaşıl hidrogen"in istehsalı, karbonun tutulması, utilizasiyası və saxlanılması kimi layihələrin icrası, ölkə üzrə karbon emissiyasının azaldılması üçün strateji yol xəritələrinin hazırlanmasında müvafiq köməkliyin göstərilməsi şirkətin əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib. Yeni yaradılan şirkət eyni zamanda qeyd olunan sahələrdə beynəlxalq təcrübələrin öyrənilməsini və ölkəmizdə tətbiqini həyata keçirəcək.

"SOCAR Green" MMC-nin "Masdar" şirkəti ilə birgə "Meqa" layihəsinin ilkin mərhələsində quruda 1 QVt gücündə külək və günəş enerjisi layihələrinin icrası nəzərdə tutulur. "SOCAR Green" MMC tərəfindən həmçinin "ACWA Power", "Masdar" və "Energy China" şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələri gerçəkləşdiriləcək. Eləcə də bp şirkəti ilə birgə "Şəfəq" layihəsi çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə günəş enerjisi layihəsi icra ediləcək.

Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Görülən işlər, keçirilən tədbirlər də ölkəmizin inamlı addımlarla bu məqsədə doğru irəlilədiyini göstərir. 2022-ci il dekabrın 17-də imzalanan "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası qarşıda duran hədəflərdən biridir.

Prezident İlham Əliyev martın 1-də "Gülüstan" sarayında keçirilən iclasda çıxış edərkən bu məsələyə də toxunaraq deyib: "Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng pontensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji"nin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq. Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə ki, bərpaolunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq".

Azərbaycanın evsahibliyi edəcəyi COP29 ərəfəsində bu məsələlərin bir daha nəzərdən keçirilməsi xüsusi önəm daşıyır. Beləliklə, "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" məşvərət şuralarının builki toplantısı məhz qarşıya qoyulan məqsədlərə çatmaq üçün yolları bir daha dəqiq müəyyənləşdirəcək.

***Flora SADIQLI, "Azərbaycan"***

## *Prezident ƏRDOĞAN:* "Ermənistanla normallaşma prosesini Azərbaycanla sıx koordinasiyada davam etdirəcəyik"



*Əvvəli 1-ci səh.*

On bir vilayətə və 14 milyon vətəndaşa təsir edən, 53 mindən çox insanın ölümünə səbəb olan bu zəlzələnin fəsadlarının aradan qaldırıldığını diqqətə çatdıran Prezident Rəcəb Tayyib Ərdoğan bu çətin günlərdə Türkiyənin yanında olan dost və qardaş ölkələrə təşəkkürünü bildirib.

Vurğulanıb ki, turizm mərkəzi olan Antalya bu forumla qlobal diplomatiyanın ürəyinin döyündüyü mərkəzlərdən birinə çevrilir. Bu il iştirakçıların sayı bunun əyani təzahürüdür.

Builki forumun əsas mövzusu barədə danışan Prezident Ərdoğan qlobal siyasətin mövcud vəziyyətinin mövzunun nə dərəcədə düzgün seçildiyini göstərdiyini, bəşəriyyətin ağrılı və böhran dövründən keçdiyini deyib.

Qeyd edilib ki, dünyada baş verən hadisələr yalnız siyasətdə deyil, istehsal, idarəetmə, ticarət, texnologiya kimi bir çox sahələrdə də özünü göstərir. Əmin-amanlıq, sülh və azadlıq əsri olacağına ümid etdiyimiz XXI əsr gözlənilənlərin əksinə, tədricən böhranlar dövrünə çevrilir. Türkiyə isə böhranlardan ən çox təsirə məruz qalan ölkələrdən biridir. Bəşəriyyətin gündəmində olan münaqişələrin, gərginliklərin, müharibələrin və risklərin böyük əksəriyyəti Türkiyənin yaxın coğrafiyasında yaşanır.

Ərdoğan çıxışında bəşəriyyətin üzləşdiyi digər mühüm problemlərə də diqqət çəkərək, beynəlxalq sistemin minimal öhdəlikləri belə yerinə yetirə bilmədiyini vurğulayıb.

Bütün bu çətinliklərə baxmayaraq, ölkəsinin iri addımlarla irəlilədiyini deyən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə iqtisadiyyatı ildə orta hesabla 5,5 faiz, milli gəlir 5 dəfə artıb. Ən strateji sahələrdən biri olan müdafiə sənayesində yerli və milli istehsalın payı 20 faizdən 80 faiz səviyyəsinə qaldırılıb.

Cənubi Qafqazda vəziyyətə toxunan Türkiyə Prezidenti deyib: "Türk Dövlətləri Təşkilatımız vasitəsilə Türk dünyasını birlikdə daha da gücləndirmək üçün işlərimizi davam etdiririk. Qarabağın 30 illik işğalı başa çatdıqdan sonra Ermənistanla başladığımız normallaşma prosesini Azərbaycanla sıx koordinasiyada davam etdirəcəyik".

Xatırladaq ki, Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsi, Türkiyə Xarici İşlər Nazirliyinin evsahibliyi ilə bu il "Böhranlar dövründə diplomatiyanı önə çıxarmaq" mövzusunda keçirilən Antalya Diplomatiya Forumunda 20-dən çox dövlət və hökumət başçısı iştirak edir.

## Antalyada "Cənubi Qafqazda sülh, inkişaf və bu çərçivədə qarşılıqlı əlaqələr" mövzusunda panel iclası keçirilib






**Antalya Diplomatiya Forumu çərçivəsində "Cənubi Qafqazda sülh, inkişaf və bu çərçivədə qarşılıqlı əlaqələr" mövzusunda panel iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan parlamentinin vitse-spikeri, Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesində əsas şəxslərdən olan Ruben Rubinyan çıxış ediblər.

İclasda Ermənistan ilə Azərbaycan arasında davam edən sülh danışıqları, bu müstəvidə atılan və atılacaq addımlar, Zəngəzur dəhlizi ilə bağlı müzakirələr aparılıb. Bildirilib ki, burada davamlı sülhün təmin edilməsi əsas məqsəddir. Bu, iki ölkə və bölgə ilə yanaşı, Avropa İttifaqı üçün də mühüm məsələdir. Azərbaycan Ermənistan tərəfindən bəzi məsələlərə aydınlıq gətirilməsini, o cümlədən sülh müqaviləsinin bağlanılması və ümumiyyətlə bölgədəki məsələlərlə bağlı Ermənistandan bəzi addımların atılmasını gözləyir. Azərbaycan da öz növbəsində bu addımları atır və atmaqda davam edir. Hazırda Azərbaycan gördüyü işlərlə bölgədə yeni əməkdaşlıq əlaqələrinin artırılması istiqamətində də fəaliyyətini davam etdirir.

Qeyd edilib ki, Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün Türkiyə də öz səylərini göstərməkdədir.

Hikmət Hacıyev sülh müqaviləsinin hansısa yan qüvvələrin təsiri olmadan Bakı ilə İrəvan arasında imzalanmasının və gələcəkdə bu müqavilənin şərtlərinə əməl olunmasının vacibliyini vurğulayıb.

Qeyd edilib ki, Azərbaycan Cənubi Qafqazın transformasiyasını, sülh, təhlükəsizlik və əməkdaşlıq bölgəsi olmasını istəyir.

Ruben Rubinyan Ermənistanın Azərbaycan daxilində hansısa ərazi iddiasının olmadığını, iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıdığını, bunun Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasındakı müzakirələrdə də qeyd olunduğunu deyib.

Tədbir mövzu ətrafında müzakirələrlə davam etdirilib.

## YAP nümayəndə heyəti III Antalya Diplomatiya Forumunda iştirak edir



**Martın 1-də III Antalya Diplomatiya Forumu (ADF) öz işinə başlayıb. Türkiyə Respublikası Prezidentinin himayədarlığı əsasında bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilən forum "Böhranlar dönəmində diplomatiyanı önə çıxarmaq" mövzusuna həsr edilib.**

Dünyanın 147 ölkəsindən 4000-ə qədər nümayəndənin qatıldığı foruma beynəlxalq müstəvidə olduqca yüksək diqqət və maraq var. Forum çərçivəsində keçiriləcək 50-dən artıq panel iclasında regional və beynəlxalq təhlükəsizlik problemləri, o cümlədən dünyanın müxtəlif bölgələrində münaqişələr və müharibələr, terrorizm, miqrasiya, islamofobiya, iqlim dəyişiklikləri, epidemiyalar, qida və enerji təhlükəsizliyi, süni intellektin tətbiqinin riskli nəticələri və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılacaq.

Türkiyənin Xarici işlər naziri Hakan Fidan forumu açıq elan edərək, müasir dövrdə dünyada sabitlik, təhlükəsizlik və inkişafın təmin olunmasında diplomatiyanın müstəsna önəm daşıdığını bildirib. Bu kontekstdə konstruktiv və innovativ təşəbbüslər platforması olan Antalya Diplomatiya Forumunun böyük əhəmiyyət kəsb etdiyini söyləyən H.Fidan forumun gündəliyi və müzakirə olunacaq məsələlər barədə məlumat verib. Xarici işlər naziri qeyd edib ki, beynəlxalq münasibətlərdə çoxqütblü sistemin yarandığı hazırkı dövrdə ədalətli nizamın formalaşdırılması üçün dünyanın diplomatiyaya məxsusi ehtiyacı var.

Forumda Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Dövlət başçısı müasir beynəlxalq münasibətlər sisteminin aktual məsələlərinə toxunub, bəşəriyyəti narahat edən problemlərin həllində diplomatiyanın xüsusi rolunu və əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, XXI əsr böhranlar çağına çevrilməkdədir. Belə bir vəziyyətdə beynəlxalq müstəvidə krizisləri aradan qaldırmaq üçün ən səmərəli vasitə məhz diplomatiyadır. Türkiyə Prezidenti dövlət və hökumət başçılarının, nazirlərin, regional və beynəlxalq təşkilatların təmsilçilərinin, nüfuzlu siyasətçilərin, ekspertlərin, elm və iş adamlarının, media və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən Antalya Diplomatiya Forumunun dünya ölkələri üçün həlli vacib problemlərin qarşılıqlı müzakirələr əsasında və dialoq müstəvisində çözülməsi baxımından önəmli platforma olduğunu vurğulayıb. Dövlət başçısı bildirib ki, beynəlxalq siyasətdə xaotik vəziyyətin hökm sürdüyü indiki şəraitdə forumun "Böhranlar dönəmində diplomatiyanı önə çıxarmaq" mövzusunda keçirilməsi məqsədəuyğundur.

Rəcəb Tayyib Ərdoğan həm regionda, həm də qlobal arenada sülh, sabitlik, rifah və tərəqqi naminə milli maraqlara, beynəlxalq hüquq normalarına uyğun siyasi kursun həyata keçirilməsinin strateji önəm kəsb etdiyini söyləyib. Türkiyənin xarici siyasət prioritetlərindən bəhs edən dövlət başçısı ölkəsinin ədalətli beynəlxalq nizamın yaradılmasına hədəflənmiş xarici siyasətinin konstruktiv və çoxşaxəli xarakter daşıdığını bildirib. O, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasının da regional sülh və təhlükəsizliyin başlıca gündəm məsələlərindən olduğunu diqqətə çatdırıb. Rəcəb Tayyib Ərdoğan Türkiyə dövlətinin "dünya beşdən böyükdür" və "daha ədalətli bir dünya naminə" prinsiplərinə əsaslanan qətiyyətli siyasətini davam etdirəcəyini vurğulayıb.

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti forumun ilk günündə keçirilən bir sıra panel iclaslarına qatılıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov forumun yüksəksəviyyəli iştirakçılarının şərəfinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın adından verilən rəsmi ziyafətdə də iştirak edib.

Qeyd edək ki, YAP nümayəndə heyətinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

## *Hikmət HACIYEV:* "Diplomatiya Forumunda Azərbaycanın regionda sülhün, əməkdaşlığın daha da inkişafı ilə bağlı baxışları iştirakçılara çatdırılacaq"

**"Antalya dünyanın yalnız turizm mərkəzi deyil, bu gün, eyni zamanda diplomatik mərkəzlərindən biri kimi bu cür mötəbər tədbirə evsahibliyi edir. Tədbirdə çox sayda iştirakçı var. Azərbaycanın tədbirə geniş heyətlə dəvətə görə Türkiyəyə təşəkkürümüzü bildiririk".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev media nümayəndələrinə açıqlamasında söyləyib.

Antalya Diplomatiya Forumu çərçivəsində Cənubi Qafqaza, Türk Dövlətləri Təşkilatına, bütövlükdə türk dünyasına həsr edilən, bilavasitə Azərbaycanla bağlı olan mövzularla əlaqədar çox vacib panellərin keçiriləcəyini vurğulayan Prezidentin köməkçisi bildirib ki, Azərbaycan burada öz baxışlarını bölüşəcək.

"Prezident İlham Əliyev seçkilərdən sonra keçirilən inauqurasiya mərasimində çıxışı zamanı Azərbaycanın xarici siyasətinin, dünyaya baxışının yeni istiqamət və prioritetlərini müəyyənləşdirdi. Azərbaycan COP29 kimi mötəbər tədbiri regionumuza gətirib. Cənubi Qafqaz regionunda sülhün, əməkdaşlığın daha da inkişafı istiqamətində Azərbaycanın baxışları forum çərçivəsində həmkarlarımıza və bütün auditoriyaya çatdırılacaq".

## *Haluk GÖRGÜN:* "Azərbaycan hər il Antalya Diplomatiya Forumunda yüksək səviyyədə təmsil olunur"

**"Azərbaycan hər il Antalya Diplomatiya Forumunda yüksək səviyyədə təmsil olunur. İstər nazirlər səviyyəsində, istərsə də QHT-lər tərəfindən Azərbaycan bu tədbirə çox böyük maraq göstərir".**




AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Müdafiə Sənayesi Agentliyinin prezidenti Haluk Görgün Azərbaycan media nümayəndələrinə açıqlamasında söyləyib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşü haqqında danışan nazir bildirib ki, söhbət zamanı ölkələrimiz arasında müdafiə sənayesi sahəsi üzrə davam edən proseslər və gələcək fəaliyyətlər müzakirə olunub.

Türkiyənin yerli beşinci nəsil KAAN təyyarəsinin ilk uğurlu uçuşu barədə fikrini bildirən Haluk Görgün deyib: "Təbii ki, təyyarəmizin bundan sonra bir çox uçuşu olacaq. Türkiyə dünyada beşinci nəsil təyyarə istehsal edən ölkələrdən biridir. Təbii ki, müdafiə sənayemizin bu səviyyəyə yüksəlməsi son 20 ildə Prezidentimizin ortaya qoyduğu böyük iradə, bizə verdiyi dəstək və motivasiya ilə mümkün oldu. Prezidentimiz hər zaman türk mühəndisinə, türk gəncinə inamını ifadə etdi və bizim üçün bütün imkanları yaratdı. 2028-ci ildə təyyarəmizin kütləvi istehsalına başlamağı planlaşdırırıq. Türkiyə, sadəcə, havada deyil, quru və dənizdə bir çox məhsul istehsal edən ölkə mövqeyinə gəlib çatıb. Hazırda 40-dan çox ölkəyə PUA-larımız, 45-dən artıq ölkəyə zirehli texnikalarımız ixrac olunur. Ən azı ondan çox ölkəyə hərbi gəmilər, qayıq ixrac etmişik".

## Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz YAP nümayəndə heyətini qəbul edib

**III Antalya Diplomatiya Forumu (ADF) çərçivəsində Türkiyə Cümhuriyyətinin vitse-prezidenti Cevdet Yılmaz Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**




YAP nümayəndə heyətini ölkəsində salamlamaqdan məmnunluğunu ifadə edən Cevdet Yılmaz Antalya Diplomatiya Forumunun regional və beynəlxalq məsələlərin müzakirəsi baxımından etibarlı platforma olduğunu diqqətə çatdırıb. O, qardaş ölkə təmsilçilərinin ADF-də iştirakının faydalı və önəmli olduğunu söyləyib.

Vitse-prezident 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin inamlı qələbə qazanması münasibətilə təbriklərini çatdırıb.

Prezident İlham Əliyevin 2024-cü ilin fevralın 19-da Türkiyəyə rəsmi səfərini məmnunluqla xatırladan Cevdet Yılmaz iki dost və qardaş ölkə arasındakı münasibətlərin uğurla inkişaf etdiyini, dövlət başçılarının iradələri əsasında ikitərəfli əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib. Vitse-prezident qeyd edib ki, Türkiyə və Azərbaycanın beynəlxalq platformalarda da bir-birini fəal şəkildə dəstəkləməsi milli maraqlarımızın təmin olunması və strateji hədəflərin gerçəkləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Səmimi təbrikə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov cənab İlham Əliyevin Zəfər seçkisində qazandığı inamlı qələbənin Xalq-Lider birliyinin nümunəsi olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin Zəfər seçkisindən sonra ilk rəsmi səfərini Türkiyə Cümhuriyyətinə etməsinin Azərbaycan-Türkiyə qardaşlığının bariz örnəyi olduğunu diqqətə çatdıran Tahir Budaqov yeni mərhələdə iki dövlət arasında çoxşaxəli və məqsədyönlü işbirliyinin həm ölkələrimizin inkişafına, həm də regional və beynəlxalq təhlükəsizliyə xidmət etdiyini söyləyib. "Ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış sarsılmaz qardaşlıq əlaqələri və strateji müttəfiqlik münasibətləri Azərbaycan-Türkiyə birliyini gücləndirən çox önəmli amillərdir. Bu birlik Türk dünyasında da əməkdaşlığın dərinləşdirilməsi, Türk Dövlətləri Təşkilatının güc mərkəzi kimi inkişafı üçün yeni imkanlar və parlaq perspektivlər yaradır",- deyə YAP Sədrinin müavini bildirib.

III Antalya Diplomatik Forumunun önəminə diqqəti cəlb edən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu platforma dünya miqyasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafı, dünya ölkələrini maraqlandıran qlobal məsələlərin dialoq və diplomatiya müstəvisində həll edilməsi baxımından olduqca əhəmiyyətli və faydalıdır. O, rəhbərlik etdiyi nümayəndə heyəti adından forumun işinə uğurlar arzulayıb.

Tahir Budaqov iki ölkənin hakim partiyaları arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini də məmnunluqla diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Azərbaycanın xarici işlər naziri Antalya Diplomatiya Forumu çərçivəsində bir sıra görüşlər keçirib







Martın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran aktual məsələlər, habelə cari regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın sülh səyləri, eləcə də sülh prosesinin cari vəziyyəti və ölkəmizin baxışları barədə qarşı tərəfi məlumatlandırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

* * *

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyə Müdafiə Sənayesi Agentliyinin Prezidenti Haluk Görgünlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüş zamanı iki qardaş ölkə arasında hərbi sənaye sahəsində əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olunub.

Bir sıra istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi, habelə digər qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Martın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Panamanın xarici işlər naziri Janaina Tevaney ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti İdarəsindən bildirilib ki, görüşdə iki ölkə arasında ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olunub.

Nazirlər çıxışlarında Azərbaycanın və Panamanın coğrafi baxımından bir-birindən uzaq regionlarda yerləşməsinə baxmayaraq, iki ölkə arasında iqtisadi, nəqliyyat, investisiyalar, alternativ enerji, mədəniyyət, humanitar və digər sahələr üzrə əməkdaşlığın inkişafı üçün imkanların mövcudluğundan bəhs edib. Bu istiqamətdə potensialın həyata keçirilməsi üçün iki ölkə arasında siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi qeyd olunub. Eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Qarşı tərəf cari ildə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri barədə məlumatlandırılıb.

Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə Azərbaycan tərəfindən bölgədə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesindən danışıb.

Nazir Janaina Tevaney COP29-a sədrliyi münasibətilə ölkəmizi təbrik edərək, Azərbaycanın bu məsuliyyətli tədbirin öhdəsindən uğurla gələcəyinə inandığını bildirib. Panamanın ətraf mühitin qorunması, karbon emissiyasının sıfra endirilməsi sahəsində geniş təcrübəsini bölüşməyə hazır olduğu diqqətə çatdırılıb. Belə təmasların iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərinin müzakirəsi baxımından faydalı olduğu vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Qırğızıstanın xarici işlər naziri Ceenbek Kulubayev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Qırğızıstan arasında həm ikitərəfli müstəvidə, həm də çoxtərəfli platformalarda əməkdaşlığın aktual məsələləri, habelə müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə edilib.

Nazirlər ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluqlarını ifadə edib, vaxtaşırı həyata keçirilən siyasi məsləhətləşmələrin, habelə yüksəksəviyyəli səfərlərin və siyasi dialoqun bu münasibətlər üçün vacibliyini vurğulayıblar. Ceyhun Bayramov Azərbaycan ilə Qırğızıstan arasında humanitar, siyasi, ticarət və digər sahələrdə əməkdaşlığın daha da inkişafı üçün geniş perspektivlərinin mövcud olduğunu qeyd edib.

Nazir, həmçinin çoxtərəfli platformalarda iki ölkənin bir-birinin mövqeyinə verdiyi qarşılıqlı dəstəkdən məmnunluq ifadə edib, habelə BMT və Türk Dövlətləri Təşkilatı kimi platformalarda əməkdaşlığın vacibliyini vurğulayıb, bu il Şuşada keçiriləcək Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçılarının sammitinin əhəmiyyəti qeyd olunub.

Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq prosesi barədə məlumat verilib, bu çərçivədə əməkdaşlıq imkanları dəyərləndirilib.

Nazirlər, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə bərpa-yenidənqurma məsələlərini müzakirə ediblər.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

* * *

Martın 1-də Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Küveytin xarici işlər naziri Abdullah Əli Əl-Yəhya ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Küveyt arasında ikitərəfli və çoxtərəfli müstəvilərdə əməkdaşlıq, bu əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Həmkarını xarici işlər naziri vəzifəsinə yeni təyinatı münasibətilə təbrik edən nazir Ceyhun Bayramov Küveyt xarici işlər nazirinə fəaliyyətində uğurlar arzulayıb.

Ölkələrimiz arasında əməkdaşlığın hazırkı səviyyəsindən bəhs edən nazir Ceyhun Bayramov Azərbaycanla Küveytin çoxtərəfli platformalar çərçivəsində əməkdaşlığından məmnunluğunu ifadə edib.

Bu ilin Azərbaycan-Küveyt diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümünə təsadüf etdiyini diqqətə çatdıran tərəflər ölkələrimiz arasında siyasi məsləhətləşmələrin, nazirlərin sədrlik etdikləri ikitərəfli hökumətlərarası komissiyanın və görüşlərin ikitərəfli əməkdaşlıq üçün vacibliyini vurğulayıblar. Turizm, mədəniyyət, ticarət və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu diqqətə çatdırılıb.

Küveyt tərəfi, həmçinin ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi çərçivəsində qarşılıqlı əməkdaşlığa hazır olduğunu bildirib.

Nazir Ceyhun Bayramov 30 ilə yaxın müddətdə davam edən Ermənistanın ərazilərimizin işğalı tarixçəsi, eləcə də 44 günlük Vətən müharibəsindən sonra postmünaqişə məsələləri, eləcə də ölkəmizlə Ermənistan arasında normallaşma prosesi və ölkəmizin həyata keçirdiyi bərpa-quruculuq işləri barədə qarşı tərəfə məlumat verib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər, eləcə də Yaxın Şərqdə və Qəzzada vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər, habelə postmünaqişə dövründə regional vəziyyət müzakirə olunub. Nazir Ceyhun Bayramov Azərbaycan və Özbəkistan arasında dostluq və qardaşlığa əsaslanan, siyasi, iqtisadi, ticarət, nəqliyyat və kommunikasiyalar, mədəniyyət, humanitar və digər sahələr üzrə çoxşaxəli münasibətlərin son dövrlərdə intensiv xarakter alan ali və yüksəksəviyyəli təmaslar nəticəsində inkişaf etməsinin məmnunluq doğurduğunu qeyd edib. Regional və beynəlxalq təşkilatlar, xüsusilə ölkəmiz üçün prioritet istiqamətlərdən birini təşkil edən Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın davam etdirilməsinin zəruriliyi qeyd olunub. Cari ildə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyi, bu istiqamətdə birgə tədbirlərin həyata keçirilməsində əməkdaşlığa hazır olduğumuz diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar, regional sülh və sabitliyi təhdid edən çağırışlar barədə həmkarını ətraflı məlumatlandırıb. Ermənistan tərəfindən son dövrlərdə daha intensiv xarakter alan siyasi və hərbi təxribatların, bu ölkənin sürətli silahlanaraq aqressiv ritorikasını davam etdirməsinin sülh prosesinə təhdid törətdiyi bildirilib.

Nazir Baxtiyor Saidov COP29-a evsahibliyi münasibətilə Azərbaycanı təbrik edib, bu mötəbər tədbirin təşkilatında uğurlar arzulayıb, eyni zamanda Özbəkistanın keçiriləcək tədbirə töhfə verməyə hazır olduğunu söyləyib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

* * *

Martın 1-də xarici işlər naziri Ceyhun Bayramov 3-cü Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Burkina-Fasonun xarici işlər və regional əməkdaşlıq naziri Karamoko Jan Mari Traore ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov Karamoko Jan Mari Traoreni bu yaxınlarda Burkina-Fasonun xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, iki ölkə arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə hazır olduğunu deyib.

Beynəlxalq təşkilatlar, xüsusilə BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətin hazırkı səviyyəsindən məmnunluqlarını ifadə edən tərəflər bir sıra istiqamətlərdə əməkdaşlıq potensialını vurğulayıblar.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Slovakiyanın xarici işlər və Avropa məsələləri üzrə naziri Yuray Blanar ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə Azərbaycan-Slovakiya ikitərəfli münasibətlərinin hazırkı səviyyəsindən razılıq ifadə olunub, bu əlaqələrin daha da inkişaf etdirilməsi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi üçün səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb.

Yüksəksəviyyəli qarşılıqlı səfərlərin və davamlı siyasi dialoqun iki ölkə arasında əlaqələrin daha da inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyi bildirilib. Belə səfərlərin dövlətlərarası münasibətlərin gündəliyinin zənginləşməsində və mövcud dostluq əlaqələrinin dərinləşməsində mühüm rol oynadığı barədə həmfikirlik ifadə olunub.

Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyə əsaslanan Azərbaycan-Slovakiya əməkdaşlığının bundan sonra da davam etdirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

İki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin, enerji və alternativ enerji sahəsində əməkdaşlığın, qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsi üçün Azərbaycan və Slovakiyanın birgə səylərini artırmalarının vacibliyi vurğulanıb.

Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət və son hadisələr barədə qarşı tərəfə məlumat verilib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

*AZƏRTAC*

# *Ceyhun BAYRAMOV:* "TDT-yə üzv dövlətlərlə əlaqələrin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir"



**Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində "Türk Dünyasında İnstitutlaşma: XXI əsrdə Türk Dövlətləri Təşkilatı (TDT)" mövzusunda keçirilmiş panel müzakirələrində çıxış edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ceyhun Bayramov TDT-yə üzv dövlətlərlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil etdiyini və dövlətimizin başçısının ötən günlərdə baş tutmuş tarixi andiçmə mərasimində qeyd etdiyi kimi, Türk dünyasının bizim ailəmiz olduğunu vurğulayıb.

Çıxışda tarixi-mədəni ənənələrlə bağlı olduğumuz Türk dünyası çərçivəsində əməkdaşlığımızın müxtəlif, o cümlədən siyasi, təhlükəsizlik, iqtisadi, investisiyalar və digər istiqamətlər üzrə gücləndirilməsinin beynəlxalq sistemdəki mövcud təlatümlərə qarşı dayanıqlılığımızın möhkəmləndirilməsinə xidmət edəcəyi diqqətə çatdırılıb. Bu istiqamətdə Türk dünyasının 200 milyona yaxın insanın yaşadığı geniş bir coğrafiyanı əhatə etdiyi, böyük iqtisadi potensiala, enerji ehtiyatlarına, nəqliyyat marşrutları ilə bağlı imkanlara malik olduğu nəzərə alınaraq, əməkdaşlığın daha da genişləndirilməsi üçün mövcud potensialdan istifadənin zəruriliyi qeyd edilib.

Beynəlxalq münasibətlər sistemi, xüsusilə beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlı çağırışların artdığı bir dövrdə regional əməkdaşlığın, o cümlədən TDT-nin əhəmiyyətinin daha da artdığı bildirilib. Bu istiqamətdə, üzv dövlətlərin tarixdə yol verilən əvvəlki səhvləri təkrarlamadan əməkdaşlığın gücləndirilməsi, birgə layihələrin həyata keçirilməsi istiqamətində həmrəylik nümayiş etdirməsinin vacib olduğu diqqətə çatdırılıb.

Panel müzakirələri sual-cavab sessiyası ilə davam edib.

# Azərbaycan ilə Albaniya arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbi aradan qaldırılıb

**Martın 1-də Albaniya Respublikasının Baş naziri Edi Ramanın Azərbaycana işgüzar səfəri çərçivəsində xarici işlər nazirinin müavini Fariz Rzayev ilə bu ölkənin xarici işlər nazirinin müavini Besart Kadia arasında görüş keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Albaniya arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, əlaqələrin daha da inkişafı üçün mövcud imkanlara dair fikir mübadiləsi aparılıb. Görüşün sonunda "Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında ümumvətəndaş pasportlarına malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş" imzalanıb.

# *Kadri SİMSON:* "Azərbaycan etibarlı tərəfdaş olduğunu nümayiş etdirib"



Biz Rusiyadan təbii qaz idxalını tamamilə dayandırmaq istəyirik. Ukraynada baş verən silahlı toqquşmadan əvvəl Avropa Rusiyadan 135 milyard kubmetr təbii qaz idxal edirdi. Bu gün Rusiyadan təbii qaz idxalı 40 milyard kubmetrə qədər azalıb.

Bu sözləri Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson deyib. Aİ nümayəndəsi nəzərə çatdırıb ki, Avropa Norveç, ABŞ və Azərbaycanın hesabına alternativ mənbələrdən qaz tədarük edir.

"Biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində işlərimizi davam etdiririk", - deyə K. Simson əlavə edib.

* * *

"Mən həmişə Azərbaycana məmnuniyyətlə gəlirəm. Avropa Azərbaycandan təbii qaz almağa davam edəcək". Bu sözləri Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson energetika naziri Pərviz Şahbazov ilə birlikdə keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, hazırda Avropa Azərbaycandan 11 milyard kubmetr təbii qaz idxal edir.

"Biz Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq əlaqələrini daha da artırmaq fikrindəyik və 2027-ci ilə qədər Azərbaycandan qaz idxalının həcmini 20 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. Avropa ilə Azərbaycan 2020-ci ildən enerji sahəsində əməkdaşlığa başlayıb. Bu illər ərzində bir çox layihələr həyata keçirilib və Azərbaycan hər zaman etibarlı tərəfdaş olduğunu nümayiş etdirib. Biz "yaşıl enerji" sahəsində də Azərbaycan ilə əməkdaşlığı davam etdirəcəyik", - deyə Kadri Simson vurğulayıb.

* * *

Azərbaycanın böyük həcmdə "yaşıl enerji" istehsal etmək potensialı var. Avropanın 150 Qvt "yaşıl enerji"yə ehtiyacı var. Bu sözləri Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson deyib.

O bildirib ki, Azərbaycanın alternativ enerji mənbələrinin həcmi böyükdür.

"Günəş və külək enerjisinin əldə olunması üçün işlərimiz davam edir. Mən Avropa dövlətlərində fəaliyyət göstərən bir sıra şirkətlərə Azərbaycana sərmayə yatırmasını tövsiyə etmişəm", - deyə K.Simson vurğulayıb.

Komissarın sözlərinə görə, Avropa İttifaqı "yaşıl enerji"yə olan tələbatının bir qismini Azərbaycanda istehsal olunan alternativ enerji hesabına ödəməyi planlaşdırır.

*AZƏRTAC*

# *Pərviz ŞAHBAZOV:* "Bu gün Cənub Qaz Dəhlizi Məşvərət Şurasının tarixində ən böyük iclası keçirilib"



Bu gün Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün 10-cu ildönümündə Cənub Qaz Dəhlizi Məşvərət Şurası tarixində indiyə qədərki ən böyük iclası keçirilib, bu gün iclasda 23 ölkə iştirak etdi. Bunu energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının yekunlarına dair mətbuat konfransında deyib.

"Bu bizə bir çox mesajlar verir. İkinci ildir ki, Azərbaycan "yaşıl enerji" sahəsində fəaliyyət göstərir. Bu gün bu qədər sayda ölkə və beynəlxalq şirkətlərin iştirakı bizi sevindirir. Azərbaycanda Prezident İlham Əliyev sayəsində bu sahə ciddi inkişaf edir", - deyə nazir qeyd edib.

O bildirib ki, bu görüş çərçivəsində Azərbaycanın xüsusilə dəniz küləyinin inkişaf etdirilməsi geniş şəkildə müzakirə edilib və bu istiqamətdə müqavilələr imzalanıb.

* * *

Bu il Azərbaycanda 48 milyard kubmetrdən çox qaz istehsalı nəzərdə tutulur. Bu barədə energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının yekunlarına dair mətbuat konfransında deyib.

Nazir bildirib ki, Azərbaycan bu il istehsal edəcəyi təbii qazın yarısını ixrac edəcək: "İstehsal edilən qazın təxminən yarısı Türkiyə, Gürcüstan və Avropaya ixrac ediləcək".

* * *

"Azərbaycanın qaz rezervləri sual altında deyil. Bizim istənilən qədər qaz rezervuarımız var". Bunu energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının yekunlarına dair mətbuat konfransında deyib.

"Bizim Avropa İttifaqı ilə birlikdə bir hədəfimiz var. TAP-ın genişləndirilməsi 2026-cı il üçün nəzərdə tutulub. Başqa imkanlar da var. Sadəcə, biz bunları Avropaya uyğun planlaşdırmalıyıq. Eyni zamanda uzunmüddətli layihə yerinə spot bazarlarda müəyyən qaz satışları həyata keçirilir. Biz bütün bu faktları nəzərə alaraq "Cənub qaz dəhlizi"nin genişləndirilməsini həyata keçiririk", - deyə nazir qeyd edib.

*AZƏRTAC*

# Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası plenar sessiyalarla davam edib

**Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası "Cənub qaz dəhlizi və "Yaşıl enerji" üzrə nazirlər sessiyası", "Cənub qaz dəhlizi sessiyası: Gələcəyə baxış" və "COP29 fonunda "yaşıl enerji" sessiyası: Bərpaolunan enerjinin imkanlarından istifadə" mövzularında plenar sessiyalarla davam edib.**

AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov bu toplantının Məşvərət Şurasının 10 illik yubileyi və qlobal enerji keçidinə liderliyin Azərbaycana həvalə olunduğu COP29 ərəfəsində keçirilməsi ilə əlamətdar olduğunu bildirib.

Nazir əlavə edib ki, Məşvərət Şurası enerji təhlükəsizliyi və enerji keçidi məsələlərini uğurla inteqrasiya etməklə yeni dövrə ədalətli enerji keçidini təşviq edən platforma kimi daxil olur. "Cənub qaz dəhlizi"nin inkişafı və qaz tədarükünün artırılması, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin yaradılması və bərpaolunan enerjinin təchiz edilməsi region və Avropa ölkələrinin enerji təhlükəsizliyində yeni mərhələdir. Qaz tədarükünün artırılmasından bəhs edərkən nazir deyib ki, Azərbaycan Avropa İttifaqı ilə genişləndirilmiş strateji enerji tərəfdaşlığının bu mühüm prioritetinin icrasına artıq başlayıb.

"Nəticədə Avropaya qaz ixracında artım 45 faizə, tədarükçü ölkələrin sayı isə 8-ə yüksəlib. Ötən il Avropaya 11,9 milyard kubmetr, Türkiyəyə 9,5 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz ixrac olunub. Bu artım dinamikasında əlavə marşrut kimi Trans-Balkan kəmərindən istifadənin də rolu var. Azərbaycanın təmin etdiyi əlavə həcmlər bu ildən Serbiyanın, həmçinin ötürücülük gücü artırılan TAP-ın təchizatının da mənbəyidir. Bütün bunlar, eləcə də "Abşeron Faza1", "AÇG Dərin Qaz", "Ümid Mərhələ-2", "Qarabağ" layihələrinin işlənilməsi üzrə görülən tədbirlər mövcud şəraitdə Azərbaycanın səylərinin və etibarlı tərəfdaş olmasının bariz göstəriciləridir", - deyə P.Şahbazov bildirib.

Vurğulanıb ki, 2030-cu ilədək planlaşdırılan 10 QVt "yaşıl enerji" güclərinin ilkin mərhələdə 5 QVt-nın Qara dəniz və Türkiyə üzərindən "yaşıl dəhliz"lərlə Avropaya ixracı, həmçinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın "yaşıl keçid"ə də töhfə verəcəyi qeyd olunub.

Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson çıxışında bildirib ki, enerji təhlükəsizliyinə nail olmaq və bu mühüm onillikdə enerji keçidinə uğur qazanmaq üçün etibarlı tərəfdaşlar arasında daha çox dialoq və əməkdaşlığa ehtiyac var.

"Azərbaycan qaz təchizatında Aİ üçün etibarlı tərəfdaş olmaqda davam edir. Buna görə də biz indi də əməkdaşlığı "yaşıl elektrik" enerjisinə qədər genişləndirməyi araşdırırıq. Biz artıq bu ilin sonunda COP29 üzrə Azərbaycanla əməkdaşlığı səbirsizliklə gözləyirik", - deyə Kadri Simson əlavə edib.

Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Nevzat Şatıroğlu çıxışında bunları qeyd edib: "Bu görüşdə belə yüksəksəviyyəli iştirak region ölkələrinin enerji təhlükəsizliyi və "yaşıl enerji" ilə daha təmiz gələcək istiqamətində əməkdaşlıq əzmini nümayiş etdirir. Mənbələri və marşrutları şaxələndirməklə biz enerji təchizatının uzunmüddətli təhlükəsizliyinə nail olmalıyıq. Bu nəhəng layihələri sıx əməkdaşlıq yolu ilə həyata keçirmək olar. Türkiyə Şərqlə Qərb arasında özünəməxsus yerləşməsi ilə regionda enerji layihələri üçün əsas vasitəçi kimi xidmət etməkdə davam edir".

Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili isə bu fikirləri səsləndirib: "Cənubi Qafqaz Boru Kəməri, eləcə də TANAP və TAP layihələri dünyanın ən uğurlu enerji təşəbbüsləri sırasındadır. Bu layihələr ABŞ və Avropa dövlətləri, beynəlxalq maliyyə institutları və şirkətlər tərəfindən dəstəklənməklə ev sahibi ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın mükəmməl nümunələridir. Gürcüstan "Cənub qaz dəhlizi" təşəbbüsünün tammiqyaslı inkişafına nail olmaq üçün Azərbaycan, Türkiyə, "Cənub qaz dəhlizi"nin digər iştirakçıları, Aİ nümayəndələri və maraqlı tərəflərlə fəal dialoqu davam etdirməyə sadiqdir".




Albaniyanın Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku bildirib ki, "Cənub qaz dəhlizi" ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın və tərəfdaşlığın daha da təşviqi, bu yolla daha geniş regionda iqtisadi inkişafı, əlaqəni və enerji təhlükəsizliyini təşviq edən mexanizmdir. Albaniya təbii qaz təchizatını yeni enerji mənbəyi kimi əldə etmək, daxili enerji ehtiyaclarını dəstəkləmək və elektrik enerjisindən asılılığı azaltmaq, eyni zamanda ev təsərrüfatları, sənayelər və bizneslər üçün əlçatanlığı yaxşılaşdırmaq üçün TAP-dan istifadə etmək üzrə yaxşı mövqeyə malikdir.

İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratin isə deyib ki, hər birimizin enerji keçidi məqsədlərini koordinasiyalı həyata keçirmək üçün öhdəlik götürməli olduğumuz bir dövrdə "Cənub qaz dəhlizi" Məşvərət Şurasının və Yaşıl Enerji Məşvərət Şurasının iclasları daha böyük əhəmiyyət kəsb edir: "Həmçinin G7-yə sədrliyimizi nəzərə alaraq, biz bu istiqamətdə COP29-a sədrliyi çərçivəsində Azərbaycanla əməkdaşlıq etmək istəyirik".

ABŞ-ın Azərbaycandakı səfiri Mark Libby qeyd edib ki, "Cənub qaz dəhlizi" enerji marşrutlarının və təchizatın şaxələndirilməsinin, enerji təhlükəsizliyinin milli təhlükəsizliyin təməli olduğuna parlaq sübutdur. Gələcəyə baxsaq, enerjinin şaxələndirilməsi və enerji təhlükəsizliyi getdikcə daha çox istifadə etdiyimiz enerji növlərinin müxtəlifliyi demək olacaq. Xüsusilə neft və qaz şirkətləri ilə tərəfdaşlıq mühüm olan zaman metan qazının təsirinin azaldılması kimi məsələlərdə qlobal səhnədə COP29-a evsahibliyi edən Azərbaycan COP28-dən əldə olunan impulsun davam etdirilməsinə kömək etmək üçün böyük imkana malikdir.

Rumıniyanın energetika naziri Sebastian-Ioan Burduja qeyd edib ki, Rumıniyanın ötürücü sistem operatoru "Transgaz" tranzit boru kəmərlərində əks axın qabiliyyətini təmin etməkdə məqsədi Trans-Balkan dəhlizi tam potensialı ilə işləyə bilsin və təkcə Rumıniya üçün deyil, həm də regionun digər dövlətləri üçün lazımi qaz ehtiyatlarını nəql edə bilsin: "Qara dəniz sualtı kabel xətti bərpaolunan enerjinin ötürülməsi üçün əhəmiyyətli potensiala malikdir. Bu, Avropaya "yaşıl enerji" təchizatını təmin etmək üçün mühüm fürsət təqdim edir".

İlk dəfə Məşvərət Şurasının iclasına qatılan BƏƏ-nin energetika və infrastruktur naziri Suhail Mohamed Al Mazrouei isə çıxışında bunları deyib: "Bizim Azərbaycanla strateji tərəfdaşlığımız var və biz həmişə enerji təhlükəsizliyi, əlçatanlıq və iqtisadi artıma diqqət yetirməklə rifah və qarşılıqlı artımın ümumi vizyonunu əks etdirən əməkdaşlıq üçün yeni yollar araşdırırıq".

Moldovanın energetika naziri Viktor Parlikov bildirib ki, Azərbaycan və Türkiyə ərazisindən keçməklə alternativ təbii qaz nəqli marşrutları Avropa İttifaqına üzv ölkələrin və regional tərəfdaşların görünməmiş həmrəyliyi sayəsində mümkün olub. Bu əməkdaşlıq sayəsində Moldova getdikcə enerji cəhətdən müstəqilləşir.

Sloveniyanın ətraf mühit, iqlim və energetika naziri Bojan Kumer isə qeyd edib ki, qaz həmişə Sloveniyada və bütün Avropada, xüsusən də sənaye sektorunda enerji qarışığının əhəmiyyətli bir hissəsi olub. Hazırda tərəfdaşlarımız Aİ-nin öz qaz tədarükünü şaxələndirmək səylərində həlledici əhəmiyyətə malikdir və Azərbaycan əsas strateji tərəfdaş kimi seçilir.

Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin təhlükəsizlik siyasəti və enerji təhlükəsizliyi üzrə dövlət katibi Peter Sztaray deyib ki, Macarıstan həmişə "Cənub qaz dəhlizi"nin tikintisini dəstəkləyib və onun potensialının artırılması təkcə Macarıstan, Mərkəzi və Şərqi Avropa regionu üçün deyil, həm də Avropanın qalan hissəsi üçün mühüm əhəmiyyət kəsb edir. Həmrəylik Halqası Sazişi çərçivəsində Azərbaycan qazının daha çox Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinə çatdırılması üçün regional infrastruktur sərmayələri qoyulacaq və Türkiyənin qaz ehtiyatları da regionumuzun qaz təchizatında artan rol oynayacaq. Ümid edirik ki, Azərbaycan qazı gələcəkdə Qərbi Balkanlarda təbii qazın şaxələndirilməsinə əsaslı töhfə verə biləcək.

Bolqarıstanın energetika naziri müavini Iva Petrova çıxışında qeyd edib ki, güclü regional həmrəylik və "yaşıl enerji" dəhlizləri üzərində əməkdaşlığa əsaslanan milli və beynəlxalq enerji təhlükəsizliyinə zəmanət olmadan enerji keçidi mümkün deyil. Etibarlı tərəfdaşlıqdan irəli gələn həmrəylik və əməkdaşlıq, ortaq məsuliyyət nəticəsində ərsəyə gələn "Cənub qaz dəhlizi"nin istismarı nümunədir.

Yunanıstanın ətraf mühit və energetika nazirinin müavini Aleksandra Sdoukou isə vurğulayıb ki, Azərbaycandan Avropaya Yunanıstan vasitəsilə 10 milyard kubmetrdən çox qaz tədarük edən dəhlizin tam fəaliyyətə başlaması üç ildən bir qədər çoxdur. Yunanıstan bir tərəfdən 2027-ci ilə qədər TAP-ın iki dəfə artırılmasını dəstəkləməklə, digər tərəfdən Aleksandrupolis FSRU və Bolqarıstan və Şimali Makedoniyaya boru kəmərləri kimi yeni ixrac infrastrukturunun tikintisi və ya təkmilləşdirilməsi ilə CQD-ni tamamlamaq və genişləndirmək üçün sistemli şəkildə işləyir.

Serbiyanın Mədənçilik və Energetika Nazirliyinin dövlət katibi Veljko Kovacevic isə mövqeyini belə ifadə edib: "Bakıda Serbiya-Bolqarıstan İnterkonnektorunun tikintisinin sonunda biz Azərbaycandan 2026-cı ilədək ildə 400 milyon kubmetrə qədər qaz tədarükünü razılaşdırdıq ki, bundan sonra bu həcm üç dəfə arta bilər. Azərbaycan qazı artıq Avropada qaz təchizatı mənbələrinin şaxələndirilməsi həllinin bir hissəsi kimi tanınıb. Yeni qaz birləşmələri sayəsində o indi Serbiyanın və regionun daha böyük enerji təhlükəsizliyinə töhfə verir".

Xorvatiyanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin dövlət katibi İvo Milatiç isə bildirib ki, İon Adriatik Boru Kəməri layihəsi ilə bağlı bütün tərəfdaşları ilə - Albaniya, Monteneqro, həmçinin Bosniya və Herseqovina ilə növbəti bir neçə ay ərzində fəaliyyəti sürətləndirmək lazımdır.

"Bu baxımdan, SOCAR-ın bizə göstərdiyi böyük dəstəyi xüsusi qiymətləndiririk. Bu dəstək layihə üzrə hazırlığın bu mərhələsinə çatdırılmasında mühüm rol oynayıb. Biz Avropa İttifaqının sərhədindən Cənub-Şərqi Avropaya əlavə qaz mənbəyini təmin etmək üçün qazın Avropaya çatdırılmasında Azərbaycanın böyük köməyi ilə fəaliyyətimizi gücləndirəcək və dörd ölkə arasında uğurlu əməkdaşlığı canlandıracağıq", - deyə İvo Milatiç əlavə edib.

Slovakiyanın İqtisadiyyat Nazirliyinin dövlət katibi Kamil Sasko isə deyib ki, qazın şaxələndirilməsi layihələri üzrə əməkdaşlıq hələ də həssas olan Mərkəzi və Şərqi Avropa regionunun enerji təhlükəsizliyini artırmaq üçün çox vacibdir: "Mən buraya şəxsən "Cənub qaz dəhlizi"nə və Xəzər qazını regionumuza gətirən Həmrəylik Halqasına dəstək olmaq üçün gəlmişəm. İnanıram ki, bizim hər birimizin, o cümlədən maraqlı tərəflərimizin şəxsi iştirakı regionumuz üçün bu mühüm şaxələndirmə layihəsinin həyata keçirilməsini sürətləndirəcək".

Özbəkistanın energetika nazirinin birinci müavini Azim Ahmedhadjaev çıxışında bunları deyib: "Biz Yaşıl Enerji Məşvərət Şurasının işində fəal iştirak etməyə və töhfə verməyə hazırıq. Biz "yaşıl enerji"yə qlobal keçidin inkişafı və hamı üçün daha davamlı və firavan gələcəyin qurulmasında konstruktiv rol oynamağa sadiqik".

"Cənub Qaz Dəhlizi sessiyası: Gələcəyə baxış" sessiyasında SOCAR, bp, Azərbaycan Qaz Təchizatı Şirkəti, TANAP, TAP, ADNOC, Asiya İnkişaf Bankı və Dünya Bankının nümayəndələri çıxış ediblər.

"COP29 fonunda "yaşıl enerji" sessiyası: Bərpaolunan enerjinin imkanlarından istifadə" üzrə sessiyada isə BOEMDA, CESI, SOCAR, Qazaxıstan Bərpa Olunan Enerji Mənbələrinə Dəstək Hesablama və Maliyyə Mərkəzi MMC, "Masdar", bp, "ACWA Power", "Fortescue Future Industries", "WindEurope", "SolarPower Europe", TotalEnergies, Hydrogen Europe, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Avropa İnvestisiya Bankı, IFC, Asiya İnkişaf Bankı və Dünya Bankının "yaşıl enerji"yə keçid, enerji keçidi üzrə investisiya və bazar perspektivləri, bərpaolunan enerji sahəsində həyata keçirilən layihələrlə bağlı təqdimatları dinlənilib.

# Energetika naziri və Avropa İttifaqının energetika məsələləri üzrə komissarı mətbuat üçün bəyanat yayıb

**Həmsədrlər energetika naziri Pərviz Şahbazov və Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson mətbuat üçün bəyanat yayıblar.**



AZƏRTAC xəbər verir ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası çərçivəsində keçirilən tədbirdə 23 tərəfdaş hökumətin, 52 qurum və şirkətin nümayəndələri bir araya gəliblər. Görüşdə Avropa İttifaqı və Azərbaycanın əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatı, bərpaolunan enerji istehsalının stimullaşdırılması, enerji səmərəliliyi, hidrogen, metan emissiyalarının azaldılması və ətraf mühitin qorunması mövzularını əhatə edən energetika sahəsində strateji tərəfdaşlıq əlaqələrinə mütləq şəkildə sadiq olduqları bir daha təsdiqlənib.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər iclasında Azərbaycandan sabit və rəqabətcil enerji tədarükünü təmin edən etibarlı enerji ötürücü sistemi kimi CQD-nin mühüm rolu bir daha vurğulanıb və ardıcıl üçüncü ildir ki, uğurlu fəaliyyəti qeyd edilib. 2023-cü ildə Avropa İttifaqına Azərbaycandan təqribən 12 milyard kub metr təbii qaz tədarük edilib. Bu da 2021-ci ildən bəri 45 faizdən çox artım deməkdir. Ümumilikdə, Azərbaycan 2023-cü ildə Aİ, Türkiyə, Gürcüstan və Serbiya bazarlarına təqribən 23,9 milyard kubmetr təbii qaz ixrac edib.

İştirakçılar Azərbaycandan Avropa İttifaqına tədarük olunan qazın həcmini daha da artırmaq məqsədilə müvafiq infrastrukturu və qaz yataqlarını inkişaf etdirmək üçün görülən cari işləri müzakirə ediblər. Görüşdə "Həmrəylik halqası" təşəbbüsü, o cümlədən Bolqarıstan-Serbiya İnterkonnektorundan da bəhs olunub. İştirakçılar Trans-Balkan boru kəməri kimi mövcud ötürmə sistemlərinin tam istismara verilməsini və vahid Avropa bazarına tədarükün şaxələndirilməsi prosesini daha da sürətləndirəcək cari layihələrin yekunlaşdırılmasını təşviq ediblər.

Görüşdə həmçinin CQD-nin enerji keçidi prosesindəki rolu, Qlobal Metan Vədi və Neft-Qaz Metan Tərəfdaşlığı 2.0 kimi yerli və beynəlxalq təşəbbüs və standartlara uyğun olaraq metan emissiyalarını azaltmaq üçün zəruri addımların atılmasının əhəmiyyəti vurğulanıb.

Yaşıl Enerji Məşvərət Şurasının nazirlər iclasında Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının növbəti tərəflər konfransına (COP29) evsahibliyi münasibətilə təbrik edilib. İştirakçılar son hadisələri, o cümlədən enerji sistemindəki karbohidrogen yanacaqlardan digər yanacaq növlərinə nizamlı və bərabər formada keçidlə bağlı qlobal inventarlaşdırma (Stocktake) öhdəliklərini, elmin nailiyyətlərinə uyğun olaraq 2050-ci ilə qədər xalis sıfır emissiyaya nail olmaq üçün bu kritik onillikdə görülən tədbirlərin sürətləndirilməsini, BMT-nin sonuncu İqlim Dəyişikliyi Konfransının nəticəsi olaraq 2030-cu ilə qədər dünyada bərpa olunan enerji potensialının üç dəfə, enerji səmərəliliyinin isə ikiqat artırılması təşəbbüslərini müzakirə ediblər. Azərbaycan və Aİ arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu, həmçinin 17 dekabr 2022-ci ildə Buxarestdə imzalanan "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" kimi strateji sənədlərin əhəmiyyətini təsdiq edən görüşdə tərəfdaş ölkələr, maliyyə institutları və şirkətlər Xəzər regionunun bərpaolunan enerji potensialının səfərbər edilməsində, o cümlədən enerjinin istehsalı və ötürülməsi imkanlarının genişləndirilməsində və hidrogen və digər bərpaolunan yanacaq növlərinin rolunun nəzərə alınmasında fəal rol oynamağı öhdələrinə götürüblər.

Anlaşma Memorandumunun səmərəli həyata keçirilməsi üçün həmsədrlər qarşıdakı dövrdə əməkdaşlığı müəyyən edəcək bir sıra tədbirlər və prioritet tapşırıqları razılaşdırıblar.

İclas enerji təhlükəsizliyinin gücləndirilməsinə və iqlim dəyişikliklərinə qarşı birgə fəaliyyətə mühüm töhfələr verən səmərəli dialoqun davam etdirilməsi əzminin olduğunu göstərdi.

"Cənub qaz dəhlizi"nin iclası çərçivəsində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq mövzusunda nazirlərin 6-cı iclası baş tutub. Sonda həmsədrlər (biz) Aİ və Azərbaycan tərəfləri arasında dənizdə külək enerjisinin inkişafına dair biznes və investisiya dəyirmi masasını çağırıblar.

Tərəflər Azərbaycanın Bərpa Olunan Enerji üzrə Dövlət Agentliyi ilə "WindEurope" Assosiasiyası arasında külək enerjisi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasını yüksək qiymətləndiriblər.

# Azərbaycan günəş, külək enerjisi layihələri üzrə "Nobel Energy" və "Elecnor" şirkətləri ilə əməkdaşlıq edəcək





**Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası çərçivəsində bərpaolunan enerji sahəsində əməkdaşlıq sənədləri imzalanıb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında imzalanmış Anlaşma Memorandumu Cəbrayıl rayonunda 100 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı, satışı və istehlakı üzrə əməkdaşlığı nəzərdə tutur. Sənədə əsasən, 50 MVt-ı ilkin mərhələdə, 50 MVt-ı isə növbəti mərhələdə olmaqla, ümumilikdə 100 MVt həcmində günəş-elektrik stansiyasının tikintisi planlaşdırılır.

Energetika Nazirliyi və İspaniyanın "Elecnor" şirkəti arasında da əməkdaşlıq sənədi imzalanıb. Azərbaycanda bərpaolunan enerji layihəsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu Qaradağ rayonunda 70 MVt gücündə külək-elektrik stansiyası layihəsinin həyata keçirilməsi sahəsində əməkdaşlığı əhatə edir. Bu çərçivədə küləkölçmə məlumatlarının toplanması və təhlili, həmçinin enerji saxlanc sistemi də daxil olmaqla, külək və günəş enerjisi layihələrinin inkişafı üzrə də əməkdaşlıq ediləcək.



# Azərbaycan sülh prosesinə sadiqdir

**Alman İqtisadiyyatının Şərq Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri, Azərbaycan Prezidenti İlham Əliyevin nümayəndə heyəti ilə görüşü, aparılan müzakirələr, toxunulan mövzular son günlərin ən maraqlı yeniliklərindən oldu.**

## Qlobal iqtisadiyyatda ölkəmizə maraq artır

İlk növbədə, Almaniyanın aparıcı şirkət rəhbərlərindən ibarət belə bir geniş tərkibli heyətin Azərbaycana səfəri diqqəti çəkir. Biznesin qaydalarına görə, şirkət rəhbərləri, adətən, onlar üçün indiki və gələcək perspektivlər baxımından mühüm görünən ölkələrə səfərlər edir, müxtəlif təkliflər ətrafında danışıqlara təşəbbüs göstərir, mövcud imkanlardan faydalanmağa çalışırlar. Almaniyanın şirkət rəhbərlərinin bu səfəri də qlobal iqtisadi reallıqlar dövründə ölkəmizə getdikcə artan marağın, iqtisadi gündəliyin xeyli zəngin olmasının göstəricisidir.

Bu da biznesin bir qanunauyğunluğudur ki, xarici investorlar, iş adamları üçün iqtisadi islahatların uğurla həyata keçirildiyi, biznes fəaliyyəti üçün əlverişli mühitin yaradıldığı ölkələr daha əhəmiyyətli olur. Burada iş qurmağa göstərilən maraq iqtisadi sahədə aparılmış uğurlu islahatların, Azərbaycandakı əlverişli biznes mühitinin beynəlxalq sferada yüksək qiymətləndirildiyini göstərir. Xarici şirkətlərin rəhbərləri Azərbaycanda iqtisadi islahatlarla bağlı böyük işlərin həyata keçirildiyini etiraf edir, yalnız ənənəvi enerji sektorunda deyil, başqa sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirir və bundan faydalanmaq niyyətlərini ortaya qoyurlar. Görüşdə xüsusi olaraq vurğulandı ki, Almaniya biznes dairələri və şirkətləri iqtisadi, o cümlədən enerji sahəsində transformasiya məsələləri ilə bağlı bu gündəliyə böyük töhfələrini verməyə hazırdır.

## Almaniya neytrallıq nümayiş etdirir

Ümumiyyətlə, son dövrlər Almaniyanın nümayiş etdirdiyi konstruktiv davranışlar, bu ölkənin ölkəmizə münasibətində, eləcə də Azərbaycanın regionda yaratdığı yeni tarixi reallıqlara baxışında obyektiv mövqe tutmasına dəlalət edir. Hiss olunur ki, bəzi Avropa ölkələrindən fərqli olaraq Almaniya bölgəmizdə daimi sülhün, ardıcıl inkişaf proseslərinin olmasında müəyyən qədər maraqlıdır və bunun üçün imkanlarını ortaya qoymağa başlayıb.

Elə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün Berlində təşkil olunması da Almaniyanın sülh prosesinə konstruktiv yanaşmasına bir nümunədir. Almaniya qonşuluğunda yerləşən, "alovun üstünə benzin tökən" və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq, sülh prosesində neytrallıq nümayiş etdirir.

Görüşdə Prezident İlham Əliyev böyük nümayəndə heyətinin iqtisadi əməkdaşlığın gündəliyinin müzakirəsi üçün Azərbaycana səfər etməsinin önəmini qeyd etdi, bu sahənin ikitərəfli münasibətlərimizdə mühüm rol oynadığını vurğuladı və bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Eyni zamanda Kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münxendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğuladı. Görüşdə xüsusi bildirildi ki, Azərbaycan sülh prosesinə həmişə sadiqdir. Beynəlxalq hüququn bütün normalarının Azərbaycanın tərəfində olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı son vaxtlar bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Bunun təəssüf hissi doğurduğu qeyd olundu. Belə bir münasibət bu gün bir sıra beynəlxalq institutlar tərəfindən, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilsə də, heç bir reallığı əks etdirmir və verilən qeyri-adekvat bəyanatlar beynəlxalq hüququn normalarına ziddir. Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ölkəmiz sülh danışıqları təşəbbüsü ilə çıxış etdi. Sülh yolu ilə həllin beş əsas prinsipi işlənib hazırlandı, sülh müqaviləsinin mətninin layihəsi təqdim olundu. Bütün bunlar reallığı əks etdirən faktlardır.

## Fransa və Avropa İttifaqının islamofob mövqeyi

Əfsuslar olsun ki, Avropa İttifaqının bugünkü məkrli mövqeyi başa düşülmür. Bu təşkilat yenə də ikili standartlar prinsipinə "sadiqdir". Avropa İttifaqı Azərbaycana qarşı saxta məlumatlar əsasında ittihamlar səsləndirir, Azərbaycanın guya Ermənistana hücuma hazırlaşması ilə bağlı feyk xəbərlər tirajlamaqdan belə çəkinmir. Beləliklə, bu cür ikrah doğuran qərəzli yanaşmalarla öz nüfuzunu zərbə altında qoyur.

Ən ibrətamiz məqamlardan biri isə budur ki, bütün dünya Ukrayna nümunəsində təxminən eyni reallığa Fransanın, Avropa İttifaqının tamam əks münasibətinə şahiddir. Belə ki, Fransa, Avropa İttifaqı bu gün Ukraynanın əsas müdafiəçilərindəndirlər və Ukraynanı ərazi bütövlüyünü təmin etməyə çalışdığına görə müdafiə edirlər. Azərbaycana isə ərazi bütövlüyünü təmin etdiyinə görə tamam başqa münasibət sərgilənir, ölkəmiz buna görə ən qərəzli şəkildə günahlandırılır. Bu mövqe tamamilə anlaşılmazdır və bunun islamofobiyadan başqa adı yoxdur.

Torpaqlarımızı işğal altında saxlayan Ermənistan 30 il müddətində BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüququn normalarına, o cümlədən humanitar normalara məhəl qoymadı, Xocalı soyqırımını törətdi. İndi Azərbaycan suverenliyini və ərazi bütövlüyünü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalır.

Görüşdə bir mühüm məqama da toxunuldu. Xarici, o cümlədən Almaniya mətbuatında Azərbaycan haqqında bilərəkdən mənfi təəssürat yaradan materiallarda reallığa uyğun gəlməyən, böhtan xarakterli məlumatların olmasıdır. Görüşdə çox təəssüf hissi ilə vurğulandı ki, Azərbaycan guya azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. "Bu, tamamilə yalandır və mən bundan təəssüf hissi keçirirəm", - deyən Prezident İlham Əliyev bunun saxta, məkrli məlumat olduğunu həmin yazıların müəlliflərinin özlərinin də yaxşı bildiyini qeyd etdi. Bu kampaniya qərəzlidir və ölkəmiz haqqında bilərəkdən mənfi təəssürat yaradılır. Hazırda ölkədə gedən quruculuq işlərinin, aparılan islahatların, xalqın rifahı naminə görülən tədbirlərin, reallaşdırılan layihələrin, bir sözlə, bütün sahələrdə olan uğurlu proseslərin hamı şahididir.

## Reallıq qəbul olunmalıdır

Almaniyanın Cənubi Qafqazdakı yeni tarixi reallıqlara neytral yanaşmasına rəğmən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərarın Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvü tərəfindən verilməsini isə anlamaq çətindir. Almaniya Kansleri qərəzsizlik nümayiş etdirir, bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə, həm də məqsədyönlü şəkildə edir. Əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə orada olmalıyıq?! Qeyd edək ki, bu qərara görə bu il Azərbaycanın AŞPA-nı tərk etməsi mümkün ehtimaldır. Prezident İlham Əliyev bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik.

Bu gün Qərbin Azərbaycana münasibətdə sərgilədiyi davranışlar vaxtilə guya münaqişənin həllinə təşəbbüs göstərən dövlətlərin, əslində, ölkəmizə qarşı nə qədər qeyri-obyektiv mövqe tutduqlarını, illərlə onlara göstərilmiş ümidlərin hədər getdiyini, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün hərbdən başqa yolunun qalmadığını bir daha sübuta yetirir. Vaxtilə ATƏT-in Minsk qrupunda təmsil olunmuş Fransa, ABŞ və Rusiya Azərbaycanı öz yolundan döndərmək üçün illərlə müxtəlif alətlərdən istifadə etmişdilər. Sadə bir səbəbə görə ki, onlar Azərbaycanın öz torpaqlarını azad etməsini istəmirdilər. Rusiya artıq reallığı qəbul etsə də, ABŞ və Fransa hələ də inad edir. Halbuki bu ölkələr Cənubi Qafqazın aparıcı ölkəsi, ən böyük iqtisadiyyatına, ordusuna malik, geniş beynəlxalq əlaqələri olan Azərbaycanla işləmək yolunu tutmalıdırlar.

Almaniyanın son dövrlər göstərdiyi mövqe buna bir nümunədir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Prezident bir daha həqiqəti açıqladı

## Yeni reallıqlar Azərbaycanla fərqli münasibətlərin qurulmasını tələb edir

**"Bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib. Bu baxımdan Cozef Borelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir".**

Prezident İlham Əliyevin Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündəki bu fikirləri Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi Qərb dairələrinə mesaj idi. Dövlət başçısı Azərbaycanın tutduğu yolun doğruluğunu bir daha göstərərək anti-azərbaycançı qüvvələri siyasətlərini dəyişməyə səslədi.



Prezident İlham Əliyev həmçinin Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin hüquqları ilə bağlı məsələyə toxunaraq qeyd etdi ki, əgər bir il ərzində onların hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik.

Almaniya mətbuatında Azərbaycan haqqında gedən həqiqətdən uzaq məlumatlarla bağlı təəssüfləndiyini bildirən dövlətimizin başçısı bildirdi ki, ölkəmiz haqqında bilərəkdən mənfi təəssürat yaradılır.

Mövzu ilə bağlı Milli Məclisin deputatı Fazil Mustafa "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, dövlət başçısı alman iş adamları ilə görüşündə birmənalı olaraq qalib ölkə kimi Azərbaycana xüsusi münasibət göstərilməsinin vacib olduğunu dilə gətirib: "Ermənistan üzərindən hansısa siyasət yürütməyə çalışanlar özləri uğursuzluğa düçar olacaqlar. Çünki artıq bu məsələ həll olunub, Azərbaycanla Ermənistan arasında olan münasibətlərə əlavə müdaxiləyə ehtiyac yoxdur".

Fazil Mustafa qeyd edib ki, Azərbaycan Avropa ölkələri ilə də əməkdaşlığa hazırdır, amma gərək onların da bu məsələdə qərəzli, ikili standartlarla yanaşması olmasın. Qalan məsələlər bu ölkələrin real vəziyyəti qiymətləndirməsindən asılı olacaq.

Bölgədə reallığın tamamilə dəyişdiyini vurğulayan deputat vəziyyəti qiymətləndirməyənlərin özlərinin iflasa məhkum olacaqlarını bildirib. "Ona görə də yeni reallıqlar Azərbaycanla fərqli münasibətlərin qurulmasını tələb edir. Almaniya da nisbətən neytrallıq göstərən ölkə kimi bunu nəzərə almalıdır", - deyə Fazil Mustafa əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Almaniya ölkəmizlə münasibətlərin inkişaf etdirilməsinin vacibliyini anlayır

**"Almaniyanın aparıcı şirkət rəhbərlərindən ibarət heyətin Azərbaycana səfəri Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət sayəsində ölkəmizin dünyadakı nüfuzunun durmadan artığını sübut edir. Bu, həmçinin ölkəmizə artan marağın miqyasından və iqtisadi gündəliyin zənginliyindən xəbər verir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat söyləyib ki, Azərbaycan dünyada iqtisadiyyatı sürətlə inkişaf edən dövlətlərdəndir: "Cənubi Qafqaz iqtisadiyyatının 70 faizinin cəmləşdiyi Azərbaycanda xarici şirkətlərin fəaliyyət göstərmələri üçün geniş imkanlar yaradılıb. Torpaqlarımız işğaldan azad edildikdən sonra siyasi sahədə olduğu kimi, iqtisadiyyatımızda da böyük uğurlar qazanılıb. Bu gün bir çox Avropa dövləti Azərbaycanın dost və tərəfdaş ölkə olduğunu vurğulayırlar".

Bütün bunlara baxmayaraq, son dövrlər Azərbaycanla siyasi və iqtisadi əlaqələri ürəkaçan olmayan dövlətlərdən birinin də Almaniya olduğunu vurğulayan Kamilə Əliyeva deyib: "Lakin çox keçmədi ki, Almaniyanın siyasi dairələri Azərbaycanla münasibətlərin həm siyasi, həm də iqtisadi sahələrdə normallaşmasının və inkişaf etdirilməsinin lazım olduğunu başa düşdülər. Almaniya Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki mühüm rolunu qəbul edir. Onu da unutmaq olmaz ki, Almaniya Avropa İttifaqına daxil olan ölkələr arasında iqtisadi cəhətdən inkişaf etmiş ən qabaqcıl dövlətlərdəndir. Həmçinin Almaniya Aİ-nin iqtisadi siyasətini müəyyənləşdirir".

Kamilə Əliyeva qeyd edib ki, Almaniyanın geniş tərkibdə aparıcı şirkət rəhbərlərindən ibarət heyətinin Azərbaycana səfəri ölkəmizə artan marağın bariz nümunəsidir: "Prezident İlham Əliyevin Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etməsi iki ölkə arasında iqtisadi əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Almaniya şirkətləri enerji sektoru ilə yanaşı, iqtisadiyyatın digər sahələrində də ölkəmizlə əməkdaşlıq etməyə böyük maraq göstərir və bunun üçün yaxşı imkanların olduğunu qeyd edirlər. Bu ölkə siyasi sahədə də Azərbaycanla əlaqələri yaxşılaşdırmağa üstünlük verir".

Deputat həmçinin Münxen Təhlükəsizlik Konfransında Almaniya Kansleri Şoltsun vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Paşinyan arasında keçirilən görüşdə Almaniyanın neytral mövqe nümayiş etdirdiyini bildirib. Qeyd edib ki, Münxendə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh müqaviləsinin müzakirəsi üçün Berlində bir araya gəlmələri barədə razılıq əldə edilməsi də bu neytral mövqenin təsdiqidi. "Fevralın 28-də əvvəlcə Almaniyanın xarici işlər naziri Annalena Berbokun iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistan xarici işlər naziri Mirzoyan arasında, daha sonra isə azərbaycanlı və erməni həmkarların ikilikdə görüşü keçirildi. Ardınca isə Almaniyanın xarici işlər naziri hər iki həmkarı ilə təkbətək görüşdü. Görüşlərdən sonra verilən açıqlamalarda müzakirələrin müsbət istiqamətdə getdiyi vurğulandı. Biz yenə də Almaniyanın neytral mövqedən çıxış etdiyinin, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına çalışdığının şahidi olduq. Berlində Almaniyanın vasitəçiliyi ilə baş tutan bu görüşlər Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində mühüm addım olacağına ümid edirik", - deyə müsahibimiz vurğuladı.

Kamilə Əliyeva xatırladıb ki, Prezident İlham Əliyevin şirkət rəhbərləri ilə görüşündə Almaniyanın Azərbaycandakı səfirinə AŞPA-dakı almaniyalı deputatın ölkəmizə qarşı qəbul edilmiş qərəzli qərarın müəlliflərindən biri olması barədə öz iradlarını çatdırması mühüm əhəmiyyətə malikdir. AŞPA-da ölkəmizə qarşı çıxış edən deputatın Almaniyada hakimiyyətdə olan partiyanın üzvü olması da xüsusi vurğulandı. Güman edirik ki, Almaniyanın hakim partiyası bu istiqamətdə müəyyən işlər görəcək. AŞPA-ya gəlincə, bu qurum Azərbaycana qarşı düşmən mövqedən əl çəkmədiyi təqdirdə ölkəmiz bu təşkilatla əməkdaşlığa yenidən baxacaq və bu cür davam edərsə, AŞPA-nı tərk edəcək.

"Dövlət başçısı Almaniya mətbuatında Azərbaycana qarşı qarayaxma kampaniyasının aparıldığını da səfirin diqqətinə çatdırdı. Sözsüz ki, ölkəmizin beynəlxalq aləmdə nüfuzuna xələl gətirməyə hesablanmış bu cür yalan məlumatlar qəbuledilməzdir. Bu, erməni lobbisi və onların Qərbdəki havadarlarının Azərbaycana qarşı yönəlmiş düşmənçilik siyasətinin bir parçasıdır", - deyə deputat qeyd edib.

Müsahibimiz yekunda Azərbaycanın bir dövlət və xalq olaraq yenilməz gücünə diqqət çəkib. Vurğulayıb ki, ölkəmiz Cənubi Qafqaz regionunda siyasi, iqtisadi və hərbi sahələrdə ən güclü olan və beynəlxalq aləmdə böyük nüfuza malik dövlətdir: "Müasir dünyamızda iqtisadi və siyasi cəhətdən sürətlə inkişaf edən Azərbaycanla əlaqələr qurmaq istənilən ölkəyə üstünlüklər bəxş edər. Çünki Azərbaycanın xarici siyasətinin əsas prioriteti bütün dövlətlərlə dost və səmimi münasibətlər qurmaq və sülh şəraitində yaşamaqdır".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Almaniya nümayəndə heyəti Ələt Azad İqtisadi Zonasında olub

**Almaniya Şərqi Biznes Assosiasiyasının təşkilatçılığı ilə Assosiasiyanın icraçı direktoru Maykl Harmsın rəhbərliyi altında aparıcı alman şirkətlərindən ibarət nümayəndə heyəti Ələt Azad İqtisadi Zonasını (ƏAİZ) ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, səfər zamanı Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov ƏAİZ-in fəaliyyəti, strateji coğrafi mövqeyi, unikal qanunvericilik bazası, habelə mühəndis kommunikasiya sistemləri ilə təchiz edilmiş istifadəyə hazır ərazi-daxili və ərazi-xarici torpaq sahələri və investorlar üçün təklif olunan maliyyə və qeyri-maliyyə imtiyazlar paketi haqqında görüş iştirakçılarına ətraflı məlumat verib.

Daha sonra, "Silk Way AFEZCO" şirkətinin icraçı direktoru Cavad Dbila nümayəndə heyətini ƏAİZ-in ərazisində tikiləcək karqo hava limanı haqqında məlumatlandıraraq bildirib ki, sözügedən hava limanı ƏAİZ-in investorları və digər müştərilər üçün hava ilə beynəlxalq yükdaşıma nəqliyyatı xidmətləri göstərəcək. Ardınca "Silk Way Group" şirkətinin prezidenti Zaur Axundov karqo hava limanının strateji əhəmiyyəti və ƏAİZ-in investorları və digər müştərilər üçün faydalarından bəhs edib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamenti artıq ölkələrin daxili işinə qarışır

### Heç bir qüvvə Azərbaycanı doğru yoldan döndərə bilməyəcək

**"Avropa Parlamentinin Avropa İttifaqı ölkələrinin Parlament Assambleyası olsa da, vaxtaşırı öz səlahiyyətlərindən çıxaraq Avropa məkanından uzaqda yerləşən ölkələrin daxili işlərinə qarışacaq bəyanatlar qəbul etməsi artıq adi bir hal alıb. Təkcə Azərbaycanla deyil, digər ölkələrlə əlaqədar da belə sənədlər qəbul edir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, bütün bunlar Avropanın müəyyən dairələrinin dünyaya ağalıq etmə təfəkküründən irəli gəlir. Onlara elə gəlir ki, dünyanın siyasi prokurorlarıdırlar və səlahiyyətlərinə aid olmayan, Avropadan kənarda yerləşən ölkələrin daxili işlərinə qarışa bilərlər.

Avropa Parlamentinin çox qüsurlu prosedur qaydası olduğunu deyən deputat bildirib ki, bu qurumda parlamentin üzvü olanların əksəriyyətinin deyil, sadəcə zalda olan əksəriyyətin səsi ilə müəyyən məsələlərə dair qərar qəbul edə bilirlər. Eləcə də Azərbaycanla bağlı məsələ də belə qəbul olundu. "Qərbin müəyyən dairələrində ölkəmizlə bağlı qüsurlu düşüncə tərzi var. Onlar Azərbaycanın müstəqil şəkildə daxili və xarici məsələlərini həll etməsini, təbii sərvətlərindən milli maraqlarına uyğun istifadə etməsini anlamaq istəmirlər. Azərbaycan müstəqil siyasət yürüdəndə isə buna qısqanclıqla yanaşırlar. Bütün anti-Azərbaycan bəyanatları ilk növbədə bunlardan irəli gəlir", - deyə o əlavə edib.

A.Mirzəzadə qeyd edib ki, bəyanata səs verənlərin çoxunun heç Azərbaycanın harda yerləşməsi ilə bağlı təsəvvürləri yoxdur. Sadəcə olaraq fəaliyyətlərində erməni diaspor dairələrinin maliyyəsinə əsaslanan, əqidəcə antiislam, anti-Şərq düşüncəsi olan bir neçə aktiv deputatın təklifləri qəbul edilir. Bu, əlbəttə ki, Avropa Parlamentinin qüsurlu fəaliyyətindən xəbər verir. Eyni zamanda Azərbaycanın müstəqilliyinin həmin dairələr tərəfindən hələ də qəbul edilə bilinməməsinin bariz nümunəsidir.

Deputat vurğulayıb ki, onlar nə qərar qəbul etmələrindən asılı olmayaraq, Azərbaycanı siyasi təsir altına sala, müstəqil siyasətdən çəkilməyə məcbur edə bilməyəcəklər: "Azərbaycan müstəqil, demokratik, beynəlxalq hüquqa əsaslanan dövlət qurub. Öz suveren hüquqlarını qorumağı, təbii sərvətlərinə sahib çıxmağı bacarır. Bütün fəaliyyəti dövlət müstəqiliyinin qorunması, əhalinin hüquq və azadlıqlarının təmin edilməsi, sosial vəziyyətinin yaxşılaşdırılmasıdır".

A.Mirzəzadə sonda bildirib ki, hansısa anti-Azərbaycan mahiyyətli bəyanatlar, sənədlər ölkəmizi doğru yolundan döndərə bilməyəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Avropa parlamentinin növbəti rəzilliyi

### Bu korrupsiyalaşmış qurum özünü tamamilə gözdən salıb

**Müxtəlif siyasi mərkəzlərin, xüsusilə də erməni lobbisinin aləti rolunda çıxış edən Avropa Parlamenti insan haqları və demokratiya pərdəsi altında siyasi təxribatlar törətməkdə davam edir. Müstəqil qərar vermək iqtidarında olmayan AP-nin bu günlərdə Azərbaycana qarşı növbəti qərəzli qətnamə qəbul etməsi də bunun əyani təzahürüdür.**



Belə ki, qurumun Xarici Əlaqələr Komitəsi tərəfindən hazırlanan və faktların tamamilə təhrif olunduğu "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabatı" başdan-başa böhtan, yalan və iftiralarla doludur.

Bu qərəzli hesabat Avropa Parlamentinin yeni seçkilərə hazırlaşdığı bir dövrdə qəbul edilib, həmçinin ölkəmizə qarşı çağırışları da məhz erməni lobbisinin pulu ilə fəaliyyət göstərən AP-nin rüşvətxor deputatları səsləndirirlər...

Amma Avropa İttifaqı və onun şər yuvasına çevrilmiş qurumu AP də yaxşı bilir ki, heç bir hüquqi, siyasi dəyərə malik olmayan bu kağız-kuğuz parçalarını qəbul etməklə ölkəmizə heç bir təzyiq göstərə bilməzlər.

Çünki Azərbaycan milli maraqlarını beynəlxalq hüququn normaları çərçivəsində həll edib. Buna görə də ölkəmizi suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı günahlandırmaq cəhdləri tamamilə əsassız, qərəzli və əbəsdir.

Fevralın 28-də Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman bu məsələyə toxunaraq söylədi ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Həmçinin dövlət başçısı təəssüf hissi ilə qeyd etdi ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib.

### Qarayaxma kampaniyası

Ümumiyyətlə, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, ərazisində separatizmin kökünü kəsməsi erməni lobbisinin sözü ilə oturub-duran bəzi Qərb ölkələrinin və təsisatlarının xoşuna gəlməyib və buna görə də xüsusilə son dönəmlər ölkəmizə qarşı təşkilatlanaraq "səlib yürüşü"nə çıxıblar. Antitürk, antiislam, anti-Azərbaycan qüvvələrin yuvasına çevrilən Avropa Parlamentinin rüşvətxor deputatları da iş-güclərini bir kənara qoyaraq qarayaxma kampaniyasına başlayıblar və ardarda ölkəmizə qarşı əsassız qətnamələr qəbul edirlər.

Həmçinin son zamanlar Fransanın Azərbaycana qarşı təxribatı, Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə ali komissarı Cozep Borelin guya Azərbaycanın Ermənistana hücum edəcəyi barədə yanlış iddiası və sair də göstərir ki, Qərb Azərbaycana qarşı təşkilatlanıb. Qətnamələr qəbul etməklə, qeyri-adekvat bəyanatlar verməklə ölkəmizə təzyiq göstərməyə çalışırlar.

AŞPA-da Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərarın qəbulu da Qərbin ölkəmizə total hücumunun bir başqa nümunəsidir.

Ancaq Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman Prezident İlham Əliyev bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik.

### İkili standartlar, ədalətsiz mövqelər

Avropa Parlamentinin Azərbaycana qərəzi nə bu günün, nə də dünənin işidir. İndi demokratiya adı altında ölkəmizə qarşı riyakar qətnamələr qəbul edən AP Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu 30 illik böyük bir müddətdə təcavüzkara qarşı bircə dənə də olsun qətnamə qəbul etməyib.

Erməni lobbisinin pullarını ciblərinə yığan AP deputatlarını heç zaman Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüz minlərlə soydaşımızın tarixi yurdlarından didərgin salınması, qaçqına, məcburi köçkünə çevrilməsi məsələsi maraqlandırmayıb. Hələ Birinci Qarabağ müharibəsindən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlı hərbçilərə, mülki şəxslərə qarşı qırğınlar törədilib, beynəlxalq hüquq normalarının və beynəlxalq humanitar hüququn tələblərinə zidd olaraq mülki əhali girov götürülüb, olmazın işgəncələrə məruz qalıb, onlar xüsusi amansızlıqla öldürülüb. Həmin insanların meyitləri kütləvi məzarlıqlarda basdırılıb. Amma bu günə qədər də İrəvan əsir və girov düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat vermir. Eyni zamanda işğal dövründə və ondan sonra torpaqlarımızda mina terroru həyata keçirən Ermənistan dəqiq mina xəritələrini Azərbaycana təqdim etmir.

Di gəl ki, Ermənistan tərəfindən törədilən bütün bu və digər insanlıq cinayətlərini, beynəlxalq hüquqazidd əməlləri avroparlamentarilər görmürlər, ya da görmək istəmirlər...

### Saxta iddialarla dolu "kağız parçaları"

AP-nin Xarici Əlaqələr Komitəsi tərəfindən hazırlanmış sözügedən qərəzli hesabatı qətiyyətlə pisləyən Azərbaycan Xarici İşlər Nazirliyi də bu məsələyə münasibətdə bildirib ki, bu Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir: "Bəyanatlarında ərazi bütövlüyü və suverenliyə hörməti aşılayan Avropa İttifaqının bir qurumu olan Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı nümayiş etdirdiyi bu hörmətsizlik, ölkəmizin öz suveren ərazilərində heç bir mülki əhalinin hədəf alınmadığı antiterror tədbirlərini pisləməsi və ərazilərimizdə separatçılığın və Ermənistanın keçmiş işğalçılıq siyasətinin təşviq olunması bir daha göstərir ki, Avropa Parlamenti üçün beynəlxalq hüquq və Avropa İttifaqının maraqları yox, parlament üzvlərinin şəxsi maraqları üstünlük təşkil edir".

Göründüyü kimi, Avropa Parlamenti növbəti dəfə Azərbaycana qarşı obyektivlikdən uzaq böhtan xarakterli riyakar qətnamə qəbul etməklə ölkəmizə düşmən münasibətini bir daha ortaya qoydu.

Ancaq korrupsioner qurumun kampaniya xarakterli anti-Azərbaycan fəaliyyəti ölkəmizin ədalətli mövqeyinə təsir göstərmək iqtidarında deyil. Sadəcə AP gerçəklikdən uzaq "kağız parçaları" qəbul etməklə özünü gözdən, nüfuzdan salır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Avropanın iftira və məkr yuvası

**"Avropa Parlamenti Azərbaycana qarşı qərəzli davranışlarından əl çəkmir. Bu qurumun reallıqlardan tamamilə uzaq məsələləri gündəmə gətirərək ölkəmiz əleyhinə qərəzli qətnamə qəbul etməsi bunu bir daha təsdiq edir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Müsahibimiz söyləyib ki, Avropa Parlamentinin deputatları qəbul etdikləri sənədin dəyərsiz kağız parçası olduğunu yaxşı bilirlər: "Sadəcə olaraq, günbəgün güclənən, regionda aparıcı qüvvəyə çevrilən, ərazilərində suverenliyini tam bərpa edən qüdrətli Azərbaycanın uğurlarını həzm edə bilmirlər. Avropa təsisatları regionda lokomativ rolunu oynayan ölkəmizə qarşı qərəzlərini beynəlxalq tədbirlərə evsahibliyi etməyimiz ərəfəsində daha çox nümayiş etdirirlər. Bu baxımdan, Avropa Parlamentinin növbəti ədalətsiz qətnaməni ölkəmizdə keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının nazirlərinin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 2-ci iclası ərəfəsində qəbul etməsi təsadüfi deyil".

Deputatın sözlərinə görə, həmin qətnamədə Azərbaycana qarşı sanksiyaların tətbiq olunmasına və ölkəmizlə enerji sahəsində əməkdaşlığın dayandırılmasına çağırış olunur. Lakin Avropa Parlamentinin belə qərəzli qətnamələrinə Avropa İttifaqı və ona üzv dövlətlər tərəfindən belə, məhəl qoyulmur. Onlar da bu kağız parçasında yazılanların iftira və böhtandan başqa bir şey olmadığını anlayırlar. Ona görə də bu gün ölkəmizdə keçirilən sözügedən tədbirlərdə 23 Avropa ölkəsi, 6 beynəlxalq təşkilat və 40-dan çox biznes strukturunun nümayəndəsi iştirak edir və Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolunun artırılması ilə bağlı müzakirələr aparılır.

Azər Badamov həmin qətnamənin müəlliflərini üç qrupa ayırır. Bildirib ki, qətnamənin lehinə səs verən birinci qrup deputatlar erməni sifarişlərinin icraçısıdırlar. Məlumdur ki, Brüsseldə yaşayan erməni Kaspar Karapetyan Avropaya qaçaqmalçılıq yolu ilə almazlar gətirir və həmin qiymətli daş-qaşların bir hissəsini erməni lobbisinin maraqlarını təmin etmək üçün Avroparlamentin deputatlarına verir. İkinci qrupa isə azərbaycanofob və islamofob siyasət yürüdən millətçi parlamentarilər daxildir. Onlar islam dininə olan qərəzləri ucbatından müsəlmanların çoxluq təşkil etdiyi Azərbaycana qarşı da ikili standartlardan yanaşırlar. Yəni Avroparlamentin bir qrup deputatının həmin sənədin lehinə səs verməsinə əsas səbəb Azərbaycanın islam ölkəsi kimi tanınmasıdır. Deputat həmin təşkilatda oturan parlamentarilərin bir qisminin isə Fransanın sifarişlərini icra etdiyini vurğulayıb. Onun sözlərinə görə, Avropa Parlamentində bəzi deputatlar Makron hakimiyyətindən təlimatlar alır və ona uyğun hərəkət edirlər. Ona görə də bu üç qrupa daxil olan deputatlar Azərbaycanın adı gələndə sənədin ədalətli olub-olmamasına diqqət belə etmədən, müvafiq dairələrin könlünə xoş olan, "lazımi" addımları atırlar. Azər Badamov Avroparlamentin Azərbaycana qarşı qərəzli qətnamələr qəbul etməsinə baxmayaraq, Avropanın biznes strukturlarının ölkəmizlə əməkdaşlıq etməkdə maraqlı olduqlarını da vurğulayıb.

Deputat həmçinin onu da deyib ki, bu gün Azərbaycan əleyhinə qətnamə qəbul edən deputatlar yaxın gələcəkdə keçiriləcək Avropa Parlamenti seçkilərində ermənilərin dəstəyinə və maliyyəsinə göz dikiblər. Görünür, ermənilər Rusiyadan gizli yollarla gətirilən almazları Belçikada cilalayıb sataraq qazandıqları böyük pullarla avropalı deputatları ələ almağı bacarırlar. Ermənilər o qədər hiyləgərdirlər ki, onlar Avropada brilyant biznesini ələ almaq üçün Rusiyanı Qərbin sanksiyaları ilə bazardan çıxardırlar. Təbii ki, bu həm də Rusiyaya vurulan zərbədir.

"Avropa İttifaqı Cənubi Qafqazda ayrı-seçkilik etməkdə davam edir. Ermənistan və Gürcüstanın Avropaya inteqrasiyasına xüsusi güzəştlər tətbiq etdikləri halda, Azərbaycana qarşı qərəz nümayiş etdirir. Halbuki Aİ-nin regionda əsas iqtisadi əməkdaşı Azərbaycandır. Ona görə də ölkəmizə qarşı belə riyakar münasibət qəbuledilməzdir", - deyə deputat əlavə edib.

Azər Badamov sonda vurğulayıb ki, Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur: "Qərbin mütləq monopoliya dövrü artıq başa çatır, bu cür populizmin onlara heç bir xeyri olmayacaq. Azərbaycan haqq yolundadır. Avropa Parlamentinin və ya Makron hakimiyyətinin ölkəmizə qarşı nümayiş etdirdikləri düşmən mövqeləri bizi bu yoldan heç vaxt döndərə bilməz. Bu gün riyakar qüvvələrin sülhpozucu siyasəti sabah özlərinin əleyhinə çevriləcək".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycanın Fransa müstəmləkəçiliyinə qarşı yaratdığı qlobal platforma

### Bakı Təşəbbüs Qrupu əsarət altında olan xalqların azadlıq mübarizəsinə dəstək verir, fransız kolonializminin ağır fəsadlarını beynəlxalq ictimaiyyətə çatdırır

**Fransanın Ermənistanın işğal siyasətinin, erməni separatizminin alovlu müdafiəçisi kimi çıxış etməsinin səbəbləri yalnız xristian amili və Qərbi Avropa ölkəsində böyük erməni diasporunun olması deyil. Bunlarla yanaşı, Fransanın ermənidən daha çox ermənilik etməsinin əsas səbəblərindən biri də bu ölkənin tarixən yürütdüyü müstəmləkəçilik siyasəti, planetin müxtəlif yerlərində indiyədək bir sıra xalqları əsarət altında saxlaması, onların müstəqilliklərini boğmaqla sərvətlərini talamasıdır. Məhz işğalçılıq xisləti bu iki dövləti birləşdirən ortaq amildir.**



### Fransa milyonlarla insana qarşı soyqırımı cinayəti törədib

Azərbaycan isə hər iki işğalçını bütün platformalarda həm ifşa, həm də darmadağın edir. Belə ki, 44 günlük müharibədə Ermənistanı məğlubiyyətə uğradaraq torpaqlarını azad etdikdən sonra Azərbaycan reallıqlarla barışmaq istəməyən, davamlı olaraq ölkəmizə qarşı siyasi-hərbi təxribatlara cəhd edən Fransanın müstəmləkəçilik siyasətini qlobal səviyyədə ifşa edir. Eyni zamanda respublikamız Fransanın dünyanın bir sıra yerlərində nəzarət etdiyi ərazilərin yerli əhalisinin azadlıq mübarizələrinə yaxından dəstək verir. Bu baxımdan Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda keçirilən "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılan Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəçiliyinə qarşı qlobal platformaya çevrilib. Beynəlxalq qeyri-hökumət təşkilatı kimi yaradılmış Bakı Təşəbbüs Qrupunun əsas məqsədi kolonializm və neokolonializmə qarşı mübarizəni dəstəkləməkdir.

Fransa Orta əsrlərdən başlayaraq Afrika, Asiya, Amerika və Okeaniyada həyata keçirdiyi işğalçılıq siyasətinin nəticəsi kimi müxtəlif xalqlara, milyonlarla insana qarşı soyqırımı cinayətləri törədib, onların azadlıqlarını əllərindən alıb, dövlətçiliklərini məhv edib. Faktlara nəzər salıb Fransanın müstəmləkəçilik siyasətinin nəticələrini öyrənəndə insanı sadəcə heyrət bürüyür.

Əsrlər keçsə də, Fransada dövlətçilik təfəkkürü hələ də dəyişməyib. Bu ölkə Orta əsrlərdə yaranmış müstəmləkəçilik siyasətini bu gün də davam etdirməkdə israrlıdır. Belə bir siyasət kolonializmin müxtəlif utancverici metodları ilə hələ davam etməkdədir. Yeni Kaledoniyada, Korsikada müstəmləkəçiliyə qarşı etirazların qarşısı Fransa təhlükəsizlik qüvvələri tərəfindən qəddarcasına alınır, yerli əhaliyə olmazın divanlar tutulur. Ölkələrin müstəqilliyi uğrunda mübarizə aparanlar ya həbs edilir, ya da öldürülürlər.

### Azərbaycan Fransanı ifşa edir

Qeyd edək ki, Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan xalqların səsi qlobal səviyyədə indiyədək eşidilməyib. Yaxud qlobal səviyyədə həmin xalqların etirazlarına laqeyd yanaşılıb. Lakin indi Azərbaycanın liderliyi və təşəbbüsləri ilə Fransanın müstəmləkəçilik və kolonializm siyasəti qlobal səviyyədə sürətlə ifşa edilir. İndiyədək respublikamızda bununla bağlı keçirilən beynəlxalq konfranslar Fransanın əsarətində olan xalqların azadlıq mücadilələrinə böyük təkan verir. Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına göndərdiyi məktubunun BMT-nin rəsmi sənədi kimi yayılması isə göstərir ki, Azərbaycanın Fransa müstəmləkəçiliyini ifşa etməsi qlobal səviyyədə mühüm siyasi dəstək qazanır.

Bakı Təşəbbüs Qrupu da Fransa müstəmləkəsi altında olan xalqların mübarizəsini qlobal ictimaiyyətə çatdırılması istiqamətində uğurlara imza atır. Son aylarda bu qurum tərəfindən bir neçə beynəlxalq konfrans keçirilib və artıq Fransa müstəmləkəçiliyindən əziyyət çəkən xalqlar bu platforma vasitəsilə səslərini dünyaya çatdıra bilirlər. Dünya ictimaiyyəti Bakı Təşəbbüs Qrupunun vasitəsilə Fransanın müstəmləkəsi altında olan regionlarda baş verən hadisələrdən, fransız kolonializminin ağır fəsadlarından xəbər tutur.

Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan xalqlara hüquqi müstəvidə də dəstək verir. Belə ki, təşkilatın təşəbbüsü ilə bir neçə gün əvvəl İstanbulda keçirilən "Dekolonizasiya: İntibahın oyanışı" adlı beynəlxalq konfransın yekunlarına dair yayılan kommunikedə bildirilir ki, Bakı Təşəbbüs Qrupu Beynəlxalq Ədalət Məhkəməsində Kanaki - Yeni Kaledoniyaya dəstək verəcək.

### Proses əsarətdəki xalqlar azad olunana qədər davam etdiriləcək

Fransa müstəmləkəsi altında olan xalqların azadlığı əllərindən almaqla yanaşı, həm də onların maddi və mənəvi sərvətlərini də talan edir. Hazırda Fransa muzeylərində təkcə Afrika ölkələrindən müstəmləkə dövründə oğurlanmış və talan edilmiş 90 mindən çox mədəni sərvət nümayiş olunur. Fransızların Sahara regionu ölkələrindən oğurladıqları tarix və mədəniyyət əşyalarının aqibəti isə bəlli deyil.

İstanbul konfransının ardınca Bakı Təşəbbüs Qrupu vətəndaş cəmiyyəti təşkilatları adından Fransanın Afrikadan oğurladığı maddi-mədəni əsərlərin mənşə ölkələrinə qaytarılmasını tələb edən petisiya da başladıb.

Xatırladaq ki, Fransa prezidenti Makron hələ 2017-ci ildə afrikalı gənclərlə görüş zamanı bildirmişdi ki, Afrikanın mədəni sərvətləri Afrikada sərgilənməlidir. Makron o zaman söz vermişdi ki, 5 il müddətində hər bir mədəni, tarixi əşya geri qaytarılacaq. Lakin indiyə qədər həmin əsərlərin heç biri Afrika xalqlarına qaytarılmayıb və bu, bir daha Makronun riyakarlığını və onun simasında Fransa dövlətinin işğalçı və talançı siyasətdən əl çəkmək istəmədiyini göstərir.

Bütövlükdə, Azərbaycanın liderliyi və təşəbbüsləri ilə Fransa müstəmləkəçiliyinin ağır nəticələri bütün dünyaya çatdırılır, bu dövlətin dövrümüzə qədər davam edən kolonializm siyasəti, xalqların müstəqilliklərini əllərindən alması, onların sərvətlərini talan etməsi tam ifşa olunur. Tarix boyu heç vaxt Fransanın müstəmləkəçilik siyasətinə belə zərbə vurulmamışdı. Azərbaycan bu prosesi Fransanın müstəmləkəçiliyinə qarşı mübarizə aparan xalqların öz müstəqilliklərinə qovuşana qədər davam etdirəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# Bakıda "Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması" mövzusunda konfrans olub

**Martın 1-də Bakıda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması" mövzusunda konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Məclisin deputatları, dövlət rəsmiləri, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova tədbiri açaraq Azərbaycanın inkişafının yeni dövrünə qədəm qoyduğunu, yeni hədəflərə doğru inamla və qətiyyətlə irəlilədiyini diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan Vətən müharibəsində birlik və həmrəylik nəticəsində qazandığı qələbə ilə nəinki region, ümumiyyətlə, dünya ölkələri üçün nümunə göstərib.

"Azərbaycanın Zəfərində hər bir vətəndaşımızın payı var. Sabitliyinin hökm sürdüyü multikultural ölkəmizdə müxtəlif millətlərin nümayəndələri mehriban şəraitdə yaşayırlar və bu, bir çox ölkələrə nümunədir.

Təbii ki, Azərbaycan inkişafının yeni dövrünə qədəm qoyub və qarşıda bir sıra vəzifələr durur. Bu vəzifələrin yerinə yetirilməsində hər birimiz fəal iştirak etməli, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində işimizi düzgün qurmalıyıq", - deyə komitə sədri vurğulayıb.

Milli Məclisin İnsan hüquqları komitəsinin və Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc Azərbaycanın qalib ölkə kimi "Yaşıl dünya naminə həmrəylik ili"ndə dünyanın mötəbər tədbiri olan qlobal iqlim konfransına-COP29-a evsahibliyi edəcəyini bildirib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin andiçmə mərasimində bəyan etdiyi yeni dövr idealı özündə müəyyən siyasi hədəfləri, iqtisadi strategiyaları daşıyır. Burada söhbət təkcə alternativ enerjiyə keçiddən, karbon emissiyalarını sıfra endirməkdən deyil, eyni zamanda neftdən asılılıqdan xilas olmaqdan gedir. Vurğulayıb ki, Qarabağ müharibəsi 1988-ci ildə Topxana meşəsi ilə başlayan "nifaq ocağı", 2022-ci ilin dekabrın 12-də Xankəndidə dinc ekoaksiyaçıların "sülh ocağı" ilə yekun mərhələsinə çatdı. Bu, təkcə rəmzi hadisə deyil, həm də ana təbiətin ilahi ədalətidir.

Mina terrorundan da danışan Zahid Oruc bunun təkcə qayıdış prosesinə mane olmadığını, həm də ekoloji tarazlığın pozulmasına gətirib çıxardığını vurğulayıb.

Təbiətin mühafizəsi, ekoloji tarazlığının qorunması, ümumiyyətlə, insanların sağlamlığı məsələsinin dövlətimizin daim diqqət mərkəzində olduğunu qeyd edən Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini Zəkiyyə Mustafayeva dünyanın əksər ölkələrində ekoloji tarazlığın pozulmasından yaranan problemlərin aradan qaldırılması haqqında müzakirələrin aparıldığını bildirib. Vurğulayıb ki, bu işdə hər birimiz, həmçinin qeyri-hökumət təşkilatlarının nümayəndələri fəal iştirak etməlidirlər.

Rəsmi hissədən sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın moderatorluğu ilə "Qərbi Azərbaycana qayıdış: Qadın və uşaq hüquqlarının təminatı" mövzusunda panel müzakirələr keçirilib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Qərbi Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırmağın əhəmiyyətinin qeyd edərək, tariximizin, keçmişimizin təbliğinin vacibliyini diqqətə çatdırıb. O, hər bir vətəndaşımızı Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində fəal olmağa çağırıb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva, "Regional İnkişaf" İctimai Birliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin layihə koordinatoru Şəhla Tağızadə və Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədr müavini, Azərbaycan Milli Televiziya və Radio Şurasının üzvü Telli Pənahqızı mövzu ilə bağlı fikirlərini səsləndirib, görüləcək işlər barədə danışıblar.

Milli Məclisin deputatı Zahid Orucun moderatorluğu ilə keçirilən "İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə Azərbaycanın rolu" mövzusunda müzakirələrdə deputatlar Fazil Mustafa, Nigar Arpadarai, Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının sədri Səkinə Babayeva, IDEA İctimai Birliyinin layihələrlə iş üzrə şöbəsinin müdiri Zərxanım Ağayeva dünyanı və ölkəmizi narahat edən iqlim dəyişikliyi kimi qlobal problemlə bağlı narahatlıqlarını dilə gətirib ifadə edib, fikir və təkliflərini səsləndiriblər.

# Keniya Prezidenti Azərbaycanın COP29-a evsahibliyinə hazırlıq prosesi barədə məlumatlandırılıb



**Keniya Prezidenti Uillyam Samoei Ruto BMT-nin Ətraf Mühit üzrə Assambleyasının 6-cı sessiyasında iştirak üçün bu ölkədə səfərdə olan COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, COP29-a ev sahibliyi münasibətilə ölkəmizə təbriklərini çatdıran Keniya Prezidenti Azərbaycanın bu nüfuzlu qlobal tədbiri uğurla təşkil edəcəyinə əminliyini bildirib.

Keniyanın iqlim dəyişikliyi və "yaşıl enerji"nin təşviqi sahəsində lider ölkələrdən biri kimi mühüm təcrübəsini vurğulayan dövlət başçısı COP29 prosesində fəal iştirak etməyə və Azərbaycana hər cür dəstək göstərməyə hazır olduqlarını diqqətə çatdırıb.

Uillyam Samoei Ruto, həmçinin qitənin digər dövlətlərinin də bu mötəbər tədbirdə fəal iştirakı üçün səy göstərəcəklərini deyib. Eyni zamanda Keniya Prezidenti ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayıb, bu xüsusda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət edib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən nazir Muxtar Babayev Keniya Prezidentinə Azərbaycanın COP29-a evsahibliyinə hazırlıq prosesi ilə bağlı ətraflı məlumat verib.

2024-cü ildə Keniya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 20 illiyinin qeyd olunacağını bildirən nazir bu münasibətlə COP29 çərçivəsində ikitərəfli əməkdaşlığın daha da genişləndiriləcəyini, qarşıdakı dövrdə müxtəlif sahələr üzrə münasibətlərin inkişafına möhkəm zəmin yaranacağını vurğulayıb.

# Misirdəki Britaniya Universitetində COP29 konfransı ilə bağlı tədbir keçirilib





**Azərbaycanın Misirdəki səfiri Elxan Poluxovun, BMT nümayəndələrinin, misirli alimlərin və gənclərin iştirakı ilə Misirdəki Britaniya Universitetində noyabrda Bakıda keçiriləcək COP29 iqlim konfransının əhəmiyyəti və misirli gənc mütəxəssislərin bu mötəbər tədbirdə fəal iştirakı ilə bağlı müzakirələr aparılıb.**

AZƏRTAC Misirdəki Britaniya Universitetinin mətbuat açıqlamasına istinadla xəbər verir ki, tədbirdə çıxış edən BMT İnkişaf Proqramının (UNDP) Misir üzrə nümayəndəsi Françesko Fraskatti Azərbaycanda keçiriləcək COP29 iqlim konfransının əhəmiyyətindən danışıb. O qeyd edib ki, Misirdə baş tutan COP27 və BƏƏ-də təşkil edilən COP28 konfransları iqlim dəyişikliyi ilə mübarizə sahəsində mühüm mərhələlər oldu. Azərbaycanda keçiriləcək COP29 isə bu sahədə daha böyük uğurlarla əlamətdar ola bilər.

Səfir E.Poluxov iştirakçılara COP29 iqlim konfransına hazırlıq prosesi haqqında ətraflı məlumat verib, bu mötəbər tədbirin ən yüksək səviyyədə keçirilməsinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılan Təşkilat Komitəsinin fəal iş apardığını vurğulayıb. O əlavə edib ki, diplomatik nümayəndəliklər Azərbaycandakı COP29 iqlim konfransı çərçivəsində birgə işləmək üçün beynəlxalq tərəfdaşları cəlb etməyə çalışırlar. Səfir, həmçinin iqlim sammitinin gənclər tərəfindən hazırlanan simulyasiya modelində iştirak edən Britaniya Universiteti tələbələrinin fəaliyyətini yüksək qiymətləndirib.

Misirdəki Britaniya Universitetinin rektoru Mohammed Lütfi çıxışında qeyd edib ki, onun rəhbərlik etdiyi ali təhsil ocağının iqlim tədqiqatları ilə məşğul olan alimləri COP29 konfransına hazırlıq məsələlərində Azərbaycanın səfirliyi ilə sıx əməkdaşlıq etməyə hazırdır. Onun sözlərinə görə, misirli və universitetdə çalışan əcnəbi alimlər bununla bağlı yeni təşəbbüslərlə çıxış edəcəklər. Rektor diqqətə çatdırıb ki, Misirdəki Britaniya Universiteti artıq iki ildir BMT-nin İnkişaf Proqramı ilə birlikdə ekologiya layihələri həyata keçirir.

Mohammed Lütfi Azərbaycanda keçiriləcək COP29 iqlim konfransına töhfə vermək məqsədilə BMT-nin himayəsi altında tələbələrdən ibarət Təşəbbüs qrupunun yaradılması təklifini irəli sürüb. O, habelə tələbələrin gənclərdən ibarət iqlim sammiti simulyasiyası modelində fəal iştirak etdiklərini vurğulayıb. Rektor bildirib ki, bu təşəbbüsdə dünyanın 60 ölkəsindən 65 universitetin 300 tələbəsi, habelə 100-dən çox alim və ekspert təmsil olunur. "COP27 və COP28 iqlim konfranslarında təcrübələrini təqdim etdikləri birinci və ikinci tədbirlərdə iqlim sammitinin simulyasiya modelində iştirak edən Britaniya Universitetinin tələbələri, həmçinin Bakıda keçiriləcək COP29 iqlim sammitində iştirakla bağlı arzularını bildiriblər", - deyə Mohammed Lütfi qeyd edib.

# Dünya ekoloqlarının COP29-dan gözləntiləri çoxdur

**Ekologiya bir elm kimi XX əsrin ikinci yarısında formalaşmışdır. Bunun obyektiv səbəbləri var idi. Dünyada əhalinin sayı artdıqca sosial-iqtisadi, maddi problemlər də çoxalırdı. Üstəlik, əvvəllər insanlar aza qane olurdularsa, yaşayış standartları dəyişdiyi üçün onların istəkləri də artırdı.**



Belə olan halda insan yaşayış ehtiyaclarını ödəmək üçün təbii ehtiyatları talamağa başladı. Təbii ehtiyaclar isə tükənməz deyil. Ona görə də təbii ehtiyacla təbii ehtiyatlar arasında "mübarizə" getdikcə qızışdı. Hətta o dərəcədə ki bəşəriyyət ekoloji fəlakətlə üz-üzə qaldı. İndi dünyanın bütün ekoloqları bu fəlakətin qarşısını almağın yollarını arayırlar.

Bu gün təbiətin ən böyük bəlası antropogen təsirlərdir. Meşələrin və heyvanların məhv edilməsi faciə, landşaft, iqlim və atmosferin çirklənməsi böyük təhlükədir. Bu faciə və təhlükə özünü anomal iqlim şəraitində, təbii fəlakətlərin artmasında və ərzaq məhsulları istehsalının azalmasında qabarıq büruzə verir.

Azərbaycan da zaman-zaman ekoloji problemlərin həll edilməsi üçün müxtəlif tədbirlər həyata keçirir. Amma yenə də problemlər olur. Ölkəmizdə ekoloji problemlərin əsas mənbəyi qlobal ekoloji proseslər və onların lokal təsirləridir. Su mənbələrinin azalması, sənaye müəssisələrinin və nəqliyyatın atmosferi çirkləndirməsi kənd təsərrüfatında yararlı torpaqların sıradan çıxmasına səbəb olur. Üstəlik də biomüxtəliflik, meşələr, flora və fauna yaxşı qorunmur. Sadalanan və sadalanmayan digər problemlər Azərbaycanda "yaşıl iqtisadiyyat", "yaşıl enerji" və "yaşıl zona" kimi vacib addımların atılmasını zəruri edir. Və bəri başdan qeyd edək ki, bu istiqamətdə təsirli tədbirlər də görülür. Onlardan biri elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payını 2026-ci ilədək 24, 2030-cu ilə kimi isə 30 faizə çatdırmaqdır. Bu hədəfə çatmaq üçün Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri 2021-ci ildə "yaşıl zona" elan etmişdir. Ötən iki il regionda bərpaolunan enerji mənbələrindən istifadəni artırmaq üçün "Masdar", "ACWA Power", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy Management", bp kimi xarici şirkətlərlə əməkdaşlıq edilir. Bu istiqamətdə 230 MVt gücündə olan "Qaradağ" Günəş-Elektrik Stansiyasının istismara verilməsi daha əlamətdar hadisədir.

"Yaşıl iqtisadiyyat"ın inkişafı ekoloji problemlərin həlli yolunda atılan ən gərəkli addımdır. Bu həm də təkcə Azərbaycanda deyil, bütün dünyada geniş vüsət alıb. Çünki ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün bu gün "yaşıl iqisadiyyat"ın genişləndirilməsi tələb olunur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi"dir.

Qeyd edək ki, Azərbaycanda qurulmuş təkrar emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir. Müasir iqtisadiyyatda "təkrar emal" vacib məsələdir. İstehlak prosesindən sonra tullantıların bir qismini yenidən istifadəyə yararlı hala gətirməklə müxtəlif sahələrdə yaranan qıtlığın qarşısını almaq mümkündür. Ümumiyyətlə, yenidən istifadəsi mümkün olan materialların dövri olaraq istehlak prosesinə daxil edilməsi sayılan təkrar emalda əsas məqsəd təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısını almaq, eləcə də əlavə xammal bazası yaratmaqdır.

Azərbaycanın gələcək iqtisadi inkişafı ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində görülən uğurlu işlərdən asılıdır. Bu istiqamətdə ölkədə həyata keçirilən tədbirlərin nəticələri əsas verir deyək ki, Azərbaycan dünyanın indiki ekoloji "dağıntılar" şəraitindən çıxması üçün gərəkli addımlar atır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi qərarı da bu səbəbdən dolayı alınıb. Ona görə də deyə bilərik ki, dünya ekoloqlarının COP29-dan gözləntiləri çoxdur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Heydər Əliyev Mərkəzində "Qarabağ FK - 30 mövsüm səfərdə" sənədli filminin təqdimatı olub






**Martın 1-də Heydər Əliyev Mərkəzində "Qarabağ FK - 30 mövsüm səfərdə" adlı sənədli filmin təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə hökumət rəsmiləri, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, idman ictimaiyyətinin nümayəndələri və mədəniyyət xadimləri iştirak ediblər.

Filmdə "Qarabağ" Futbol Klubunun yerli çempionatda və avrokuboklarda uğurlu çıxışı, Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra "İmarət" stadionunun taleyi, "köhlən atlar"ın sabiq futbolçusu, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovdan bəhs olunub.

Mədəniyyət Nazirliyinin, "Salnaməfilm" və "Azərbaycanfilm"in ortaq layihəsi olan dördhissəli filmdə xarici jurnalistlərin və futbolçuların "İmarət" stadionu, "Qarabağ" klubu ilə bağlı hazırladıqları materiallar və onların fikirləri də yer alıb.














# Martın 5-də baş prokuror Cəlilabadda vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq baş prokuror Kamran Əliyev cari il martın 5-də, saat 10:00-da Cəlilabad rayon prokurorluğunun inzibati binasında Cəlilabad, Masallı və Yardımlı rayon sakinlərinin qəbulunu keçirəcək.

Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına əsasən, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Cəlilabad rayonuna gəlmələrinin təşkili rayon prokurorları tərəfindən həyata keçiriləcək. Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu, **contact@prosecutor.gov.az** elektron poçt ünvanı, həmçinin prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook və X) vasitəsilə də qəbula yazıla bilərlər.

# GDU-da "Technest" Təqaüd Proqramı haqqında məlumatlandırıcı görüş keçirilib

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin həyata keçirdiyi "Technest" Təqaüd Proqramı çərçivəsində Gəncə Dövlət Universitetində tələbələrlə məlumatlandırıcı görüş keçirilmişdir.**




Görüşdə universitetin tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov çıxış edərək, informasiya texnologiyaları sahəsində nəzəri bilikləri yüksəltməyin önəmindən və bu sahədə yaradılan imkanlardan danışmış, tələbələrə "Technest" Təqaüd Proqramından yararlanmağı tövsiyə etmişdir.

Sonra İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin layihə meneceri Gülnar Mirhüseynova təqaüd proqramı haqqında ətraflı məlumat vermiş, layihənin əhəmiyyətindən, eləcə də burada yer alan proqramlar və qəbul şərtlərindən danışmışdır. Qeyd etmişdir ki, məqsəd gənclərin İKT sahəsi üzrə biliklərə yiyələnməsinə və nəzəri biliklərin təcrübədə tətbiqinə dəstək olmaqdır.

Layihə meneceri onu da bildirmişdir ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və Gəncə Dövlət Universiteti arasında əməkdaşlığa əsasən, ötən il GDU-nun 66 tələbəsi "İT mütəxəssisi" təlimlərində uğurla iştirak edərək məzun adını almışdır. Bu il isə universitet üzrə daha 36 tələbə təlimlərə cəlb olunacaq. Onlara "Code Academy"nin ixtisaslı mütəxəssislər tərəfindən İK sahəsində 5 ay müddətində dərslər keçiriləcək.

Görüş zamanı "Code Academy"nin fəaliyyətindən də danışılmış və "Technest" Təqaüd Proqramı çərçivəsində ümumilikdə 29 bölgədən 1300-dən çox gəncin İKT üzrə təqaüdlü təhsilə cəlb olunduğu bildirilmişdir.

Sonda tələbələrin sualları cavablandırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Xocalıda aşkar edilmiş kütləvi məzarlıqdan daha 5 nəfərin qalıqları tapılıb

Xəbər verildiyi kimi işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır.

**(https://genprosecutor.gov.az/az/post/7348)**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində dünən daha 5 nəfərə aid insan qalıqları aşkar edilib, bununla da, kütləvi məzarlıqda basdırılan insan qalıqlarının ən azı 10 nəfər şəxsə (onlardan 2 nəfərin yetkinlik yaşına çatmayan olması ehtimal edilir) məxsus olması, onların qeyri-insani rəftara və fiziki zorakılığa məruz qalması müəyyən edilib.

Aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda ərazidə basdırılmış insan qalıqlarının tam müəyyən olunması istiqamətində Baş Prokurorluq tərəfindən aidiyyəti qurumlarla birgə hadisə yerinin müayinəsi davam etdirilir.

Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 30 dekabr 2023-cü il tarixdə elanı verilmiş Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Oğuz, Balakən, Neftçala, Beyləqan Şirvan Ağsu və Salyan rayonlarında 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar keçirilən açıq tenderdə qiymət təkliflərinin son verilmə tarixi və vaxtı 04 mart 2024-cü il saat 18:00-dan 11 mart 2024-cü il saat 18:00-dək uzadılsın. Tender təkliflərinin açılış tarixi və vaxtı 12 mart 2024-cü il saat 15:00 kimi nəzərə alınsın.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarından olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" və "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Bakı, Sumqayıt, Abşeron istisna olmaqla respublikanın digər şəhər və rayonları üzrə)" adlı ***müsabiqələr keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri 15 mart 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqələr 18 mart 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan diyircəkli yastıqların satın alınması məqsədilə ***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 mart 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid atası Oqtay Cəmil oğlu Səlimovun adına verilmiş Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Zığ şosesi-Hava limanı 12-ci km, Yeni Yaşayış kompleksi, bina 59, giriş 10, mərtəbə 3, 2 nömrəli mənzilin sənədi itdiyi üçün etibarsız sayılır.**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4304
Sifariş 456

Qiyməti 60 qəpik